# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 67

*Milli Məclisin iclas salonu.*
*17 mart 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 113 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Səadət Yusifova**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.
**Gülər Mikayılova**, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Aparatının Hüquq şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
3. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sahib Alıyev, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Ceyhun Məmmədov, Hikmət Məmmədov, Tural Gəncəliyev, Bəhruz Məhərrəmov, Zahid Oruc, Vüqar Bayramov, Siyavuş Novruzov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**1. "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Razi Nurullayev, Səməd Seyidov, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**3. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov, Nigar Məmmədova, Vüqar Bayramov, Səadət Yusifova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**6. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Polad Bülbüloğlu, Hikmət Məmmədov, Mehriban Vəliyeva, Aydın Hüseynov, Gülşən Paşayeva, Elçin Mirzəbəyli, Tahir Mirkişili, Fəzail İbrahimli, Səadət Yusifova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Vüqar Bayramov, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Zahid Oruc, Razi Nurullayev, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Nigar Arpadarai, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Günay Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 5 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*17 mart 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 113 |
| Yetərsay | 83 |

İndi isə, buyurun, gündəliyə də münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, ənənəvi olaraq bizim cari məsələlərlə bağlı 30 dəqiqəmiz var. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə əlaqədar 10 nəfər çıxış edə bilər. Kim istəyir, buyursun, yazılsın. 10 nəfərin siyahısı qalır. Xahiş edirəm, 3 dəqiqəlik reqlamenti nəzərə alın.

Sahib Alıyev. Buyurun, Sahib müəllim.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar! Mən ötən həftə keçirilən XIII Qlobal Bakı Forumu və daha bir neçə məsələ haqqında danışmaq istəyirəm.

Maraqlıdır, deyilmi? Bir zamanlar Azərbaycanla Ermənistana "çəkişməyə son qoyun, aranızdakı problemi danışıqlar masası arxasında çözün" – deyənlərin, əməldə isə bunun əksinə çalışanların indi hamısı ya özləri birbaşa savaşın içindədirlər, ya da savaşa qatılanların yanında yer alıblar. Dövlətimiz isə beynəlxalq tədbirlərdə özünün işğala son qoymaq və sülh yaratmaq təcrübəsini bölüşür ki, onlardan biri də keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılmasına həsr olunmuş XIII Qlobal Bakı Forumu idi.

Cənab İlham Əliyev həmin forumda bir vaxtlar bizim üzləşdiklərimizlə indi üzləşən dövlətlərə üzünü tutaraq deyir ki, "haqlı olduğunuza əminsinizsə, sizi əngəlləməyə çalışanlara fikir verməyin"! Torpaqlarımız işğal altında olanda kimsə Azərbaycan Prezidenti sayaq açıq şəkildə bunu bizə deyirdimi? Xeyr, demirdilər. Amma buna baxmayaraq, millətimiz və dövlətimiz təsəvvürə belə gətirilməyən bir reallıq yaratmağı bacardı.

Elə bir reallıq ki, Bakıda XIII Qlobal Forum keçirilən gün Ermənistanın baş naziri Avropa Parlamentində Qarabağdan özləri çıxıb gedən soydaşlarının emosional hissləri ilə oynamamaq çağırışı edir, onların geri dönməyəcəklərini bildirirdi. Qarabağı özləri tərk edənlərin geriyə dönüşləri ilə bağlı bir neçə qətnamə qəbul edən Avropa Parlamentindəkilər üçün bunun nə demək olduğu yəqin ki, aydındır. O da aydındır ki, Paşinyanın həmin çıxışı da, oradan dövlət başçımıza bir daha minnətdarlığını bildirməsi də, eyni gündə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya səfəri də, Fransa Prezidenti Makronun cənab İlham Əliyevə zəng edərək Azərbaycana qarşı hava hücumunu pisləməsi, bizimlə həmrəyliyini

dilə gətirməsi də bir-birinə bağlı məsələlərdir. Eyni zamanda, ötən il avqustun 6-da Vaşinqtonda üzə çıxan reallığın Avropada da həzm olunmasıdır. Bu, 2024-cü il aprelin 5-də Brüsseldə keçirilən üçlü görüşdəki məkrli planın üstündən xətt çəkilməsi və Azərbaycan diplomatiyasının qələbəsi deməkdir.

Hörmətli xanım sədr, sonda, icazənizlə, hökumətin hesabatı zamanı etdiyim çıxışdan bir neçə saat keçmiş Baş nazirin göstərişi ilə ekologiya və təbii sərvətlər nazirinin, digər qurumların rəhbərlərinin əlaqə saxlayıb qaldırdığım problemlə maraqlanmalarına toxunmaq istərdim. Fikrimcə, bu, vətəndaş məmnunluğunun təmini baxımından parlament və hökumət əməkdaşlığının gözəl bir örnəyidir. Çıxışımda qaldırılan məsələlərə belə operativ reaksiyaya görə cənab Baş nazirə və kabinet üzvlərinə minnətdarlığımı bildirirəm!

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Son dövrlərdə seçicilərimlə görüşlərim zamanı ən çox səslənən problemlərdən biri əlilliyin təyinatı ilə bağlı yaranan çətinliklərdir. Bu məsələ xüsusi ilə ağır xəstə insanlar və müharibə veteranları üçün ciddi narahatlıq doğurur. İnsanlarla görüşürəm, onlar bildirirlər ki, tibbi sənədlərin toplanması, instansiyalara müraciətlər, elektron sistemə müraciətin göndərilməsi və qərarın verilməsini gözləmək çox vaxt aylarla zaman aparır. Bəzi hallarda isə vətəndaşlar aldıqları qərarla razılaşmadıqları üçün yenidən müraciət etməyə məcbur qalırlar. Bu proses həm fiziki, həm də psixoloji baxımdan onsuz da çətin vəziyyətdə olan insanlar üçün əlavə yük yaradır. Xüsusi ilə diqqət çəkən məqam isə odur ki, belə problemlərlə

müharibə veteranları da üzləşir. Sağlamlığını itirmiş insanlar bəzən uzun müddət əlillik dərəcəsinin müəyyən olunmasını gözləyir və ya qərarla bağlı suallar yaranır. Cəmiyyətdə və sosial şəbəkələrdə yayılan müraciətlər də göstərir ki, belə məsələlər tək-tək hallarda baş vermir, daha geniş bir prosesə çevrilir. Etiraf etməliyik ki, son illər sosial müdafiə sahəsində mühüm islahatlar həyata keçirilib. Əlilliyin təyin olunması prosesinin elektronlaşdırılması şəffaflığın artırılması baxımından mühümdür. Lakin praktikada görünür ki, bu mexanizm hələ də bütün hallarda vətəndaş üçün rahat və operativ işləyə bilmir. Düşünürəm ki, bu sahədə bir neçə məsələyə xüsusi diqqət yetirilməlidir. İlk növbədə əlillik təyinatlı prosedurlar daha sadə və vətəndaş yönümlü olmalıdır.

Tibbi sənədlərin toplanması və sistemə daxil edilməsi prosesində insanları uzun və yorucu prosedurlarla üz-üzə qoymaq lazım deyil.

İkincisi, xüsusi ilə müharibə veteranları, ağır xəstələr və sosial baxımdan həssas qruplar üçün sürətləndirilmiş mexanizm tətbiq olunmalıdır. Bu insanlar aylarla qərar gözləməməlidir. Verilən qərarla razılaşmadıqları hallarda daha operativ və şəffaf apellyasiya mexanizmi təmin edilməlidir. Hesab edirəm ki, əlillik məsələsinə yalnız texniki prosedur kimi deyil, sosial ədalət və insan ləyaqəti məsələsi kimi yanaşmalıyıq. Dövlətin sosial siyasətinin əsas məqsədi məhz ən çox ehtiyacı olan insanları qorumaqdır. Bunları diqqətlə təhlil edib aradan qaldıra bilsək, həm vətəndaş məmnuniyyətini artırarıq, həm də sosial müdafiə sisteminə olan ictimai etimadı gücləndirmiş olarıq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Razi müəllim.

Fərid müəllim, birincisi, deyin, mikrofonla bağlı problemə baxsınlar.

İkincisi, Musa müəllim, görürəm, burada yoxdur. Adil Vəliyev, xahiş edirəm, Razi müəllimlə bu gün görüşün, o dediyi məsələləri araşdırın. Məktubdurmu, ərizələrdirmi, baxın, bəlkə heç onlar da yoxdur. Ancaq bu məsələ ilə bağlı Razi müəllimlə danışın. Çünki orada söhbət veteranlardan, qazilərdən gedir. Razi müəllim, verərsiniz, yaxşı? Oldu.

Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar və media nümayəndələri. Bu gün İlaxır çərşənbəsidir, həm də qarşıdan müqəddəs Ramazan və Novruz bayramları gəlir. Bu münasibətlə hamınızı ürəkdən təbrik edir və hər birinizə uğurlar arzulayıram.

Hörmətli sədr, həm də Sizi doğum gününüz münasibəti ilə təbrik edirəm. Sizə uğurlar, fəaliyyətinizdə və şəxsi həyatınızda böyük müvəffəqiyyətlər arzulayıram.

Hörmətli həmkarlar, mənim toxunmaq istədiyim məsələ – bilirsiniz ki, ayın 16-da, gecə saat təqribən 1 radələrində Bakı şəhərinin üzərində naməlum bir aparat, yəni pilotsuz uçuş aparatı dövrə vurub. Sakinlər bundan çox narahat olub. Təəssüf ki, müvafiq dövlət orqanları hələlik bu barədə heç bir açıqlama verməyiblər.

Bizim "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu var. Orada bir bənd var ki, belə hallarda ictimaiyyəti informasiya ilə təmin etmək dövlət orqanlarının borcudur. Eyni zamanda, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunumuz da var. Orada da qeyd olunur ki, dövlətin siyasəti informasiya sahəsində milli təhlükəsizliyi təmin etməkdir.

Bu kimi hallarda, yəni geniş ictimai rezonans doğuran hadisələr haqqında məlumat verilməyəndə bu, çoxsaylı şayiələrin yayılmasına səbəb olur. Çox təəssüf ki, belə şayiələrin böyük bir qismi də dövlətin və dövlət

orqanlarının gözdən salınmasına yönəlir. Buna görə də hesab edirəm ki, müvafiq dövlət orqanları öz vəzifələrini layiqincə yerinə yetirməli və ictimaiyyəti zamanında bu barədə məlumatlandırmalıdırlar.

Xahiş edirəm ki, Milli Məclisin Aparatı mənim bu çıxışımı Müdafiə Nazirliyinə bir deputat sorğusu kimi qəbul eləsin və göndərsin. Onlar da ictimaiyyəti bu barədə məlumatlandırsınlar.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Öncə sizi İlaxır çərşənbə, Novruz və Ramazan bayramları münasibəti ilə təbrik edirəm. Eyni zamanda, hörmətli xanım sədr, Sizi doğum gününüz münasibəti ilə də səmimi qəlbdən təbrik edirəm.

Çox sevindiricidir ki, bu gün xalqımız bu bayramları qalib xalq kimi qeyd edir. Uzun illər bu bayramları qeyd edərkən ən böyük arzumuz torpaqlarımızın azad olunması idi. Ulu Öndər Heydər Əliyev tezliklə azərbaycanlıların Qarabağa – doğma yurdlarına qayıdacaqlarını çıxışlarında inamla vurğulayırdı. Xalqımızı bu qələbəyə həm də dahi şəxsiyyətin prinsipial və qətiyyətli siyasəti apardı. Bu gün Ümummilli Liderin də ruhu şaddır ki, Azərbaycan xalqı öz torpaqlarını düşmən tapdağından azad edib, onun böyük və müqəddəs arzularından biri həyata keçib.

Ulu Öndərin ən böyük arzularından biri də Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıtması idi. Əminik ki, Prezident İlham Əliyev bu prosesi də uğurla həyata keçirəcək və tezliklə Qərbi azərbaycanlılar öz doğma yurdlarına qayıdacaqlar.

Çox qürurvericidir ki, bu gün işğaldan azad olunmuş ərazilərdə böyük quruculuq və abadlıq işləri həyata keçirilir. Bu müqəddəs torpaqlarımıza

təkcə insanlar dönmür, həm də tarixin süzgəcindən keçən milli-mənəvi dəyərlərimiz və ənənələrimiz qayıdır. Hazırda işğaldan azad olunmuş bütün yurd yerlərimizdə bayram tonqalları qalanır, tarixi və dini abidələrimiz bərpa olunur, məscidlərimizdən azan səsləri ucalır.

Heç şübhəsiz ki, Azərbaycan xalqı bütün bu nailiyyətlərə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən qətiyyətli siyasət, prinsipial mövqe, xalqımızın birliyi, qəhrəman vətən övladlarının şücaəti nəticəsində nail oldu.

Bu gün hər birimiz ürək ağrısı ilə dünyanın necə ağır proseslərdən, qlobal böhranlardan keçdiyini müşahidə edirik. Hazırda, əslində, müasir dünyada həm də ciddi informasiya müharibəsi və beyinlərin mübarizəsi gedir. Bu çətin dövrdə xalq olaraq başqa yolumuz yoxdur. Xalqımız bütün məkrli niyyət və təxribatlara baxmayaraq, öz milli-mənəvi dəyərlərinə hər zaman olduğu kimi sıx bağlı olmalı, ölkə rəhbərliyi ətrafında sıx birləşməli, birlik və həmrəyliyini qorumalıdır.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu gün mənim doğum günüm deyil. Kim məni təbrik etdisə, çox sağ olsun. Bizim bir çox ənənələrimiz var, amma mən belə bir ənənə qoymamışam. Ona görə də xahiş edirəm, bu gün bizim İlaxır çərşənbəmizdir, Ramazan bayramıdır, kimi istəyirsiniz, təbrik edin, hətta hamını. Mən də təbrik edəcəyəm. Amma xahiş edirəm, ad günü münasibəti ilə deyil. Nəzərə alın və xahiş edirəm, bu haqda jurnalistlər də yazmasınlar.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Böyük dövlət xadimi, Ulu Öndər Heydər Əliyev deyirdi ki,

Azərbaycanda bayramlar çoxdur – dövlət bayramları var, rəsmi bayramlar var, dini bayramlar var. Amma Novruz bayramı hər bir azərbaycanlının ürəyinin bayramıdır. Doğrudan da, Novruz bayramı ən sevimli bayramımızdır. Bayramınız mübarək olsun!

Hörmətli xanım sədr, düşünürəm ki, Novruz bayramı bizim milli yaddaşımızın ən qədim qatlarından süzülüb gələn və elə o dövrdən Azərbaycan xalqının nə qədər intellektual və necə dərin bilgilərə sahib olduğunu göstərən bayramlardan biridir. Çünki biz İlaxır çərşənbə deyirik. Yəni gecə-gündüzün bərabərləşməsi ilə yeni təqvim ilinin başlanmasıdır. Əslində, Azərbaycanın milli dövlətçilik tarixində yeni ilin başlanğıcı həmin gündür. Ona görə də əcdadlarımız bu bayrama “erkən kon” və ya “erkənə kon” deyirdilər. Böyük Səlcuqlar dövründə bu “erkən gün” anlamı verirdi, farscaya tərcümə olunanda hərfi mənada “nevruz” oldu. Yəni – “yeni gün”.

Hörmətli mədəniyyət nazirinin müavini də  bu gün buradadır, Milli Məclisdə iştirak edir. Mən düşünürəm ki, bunu tarixi yaddaşımıza yazmalıyıq ki, “novruz” nə deməkdir? Çünki bu bayram bizim milli bayramımızdır. Bizimlə bərabər yaşayan xalqlar, o cümlədən farslar da bunu qəbul ediblər. Amma çox təəssüf ki, adı bizim dildə olmadığına görə bayramın mənşəyi haqqında təsəvvürlər də yanlış olur. Ona görə mən düşünürəm ki, novruz tədbirlərində bu istiqamətdə maarifləndirilmə işi aparılsa, yaxşı olar.

Əlbəttə, hər bir bayramın keçirilməsi üçün sülh vacib şərtdir. Bu gün tarixin çox kritik bir mərhələsindən keçirik və sağımızda, solumuzda olan böyük dövlətlərin, ya da imperiyaların müharibəyə cəlb olunduğunu görürük. Amma Azərbaycan sabitlik adasıdır. Biz bu gün Novruz bayramını Qarabağda – işğaldan azad olunmuş torpaqlarımızda qeyd edirik. Biz bu gün Kəlbəcərdə qarın altında açan bənövşənin timsalında bu bayramı hiss

edirik. Bu şəxsən mənim qəlbimi riqqətə gətirir. Ona görə də bu sülhü və firavanlığı bizə bəxş edən müstəqil dövlətçiliyimizin keşiyində durmalıyıq. Bu qələbəni bizə bəxş edən müzəffər Ali Baş Komandanımızın ətrafında daha sıx birləşməliyik. Kim bilir, bəlkə də müdrik tarix özü bizim qarşımızda yeni vəzifələr müəyyənləşdiribdir, bəlkə də daha böyük qələbələrə doğru gedəcəyik. Ona görə də sülh şəraitində keçirdiyimiz bu bayramımız mübarək olsun! Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Biz neçə gün öncə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Azərbaycana səfəri ölkəmizin qlobal geosiyasi və iqtisadi proseslərdə artan rolunun göstəricisidir. Antonio Koştanın səfəri son dərəcə mürəkkəb beynəlxalq şəraitdə – həm Rusiya–Ukrayna müharibəsinin davam etdiyi, həm də Yaxın Şərqdə və İran ətrafında gərginliyin artdığı bir dövrdə baş tutdu. Belə bir şəraitdə Avropa İttifaqının ali rəhbərliyinin Azərbaycana səfər etməsi bir daha ölkəmizin Avropa üçün strateji əhəmiyyətini təsdiqləyir. Azərbaycanın qurumla münasibətlərinin son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, Avropa komissiyasının prezidenti Ursula von der Leyenin Azərbaycana səfəri zamanı “Enerji sahəsində strateji tərəfdaşlıq haqqında” Memorandumun imzalanması və Avropa İttifaqının Azərbaycan üçün nə qədər əhəmiyyətli tərəfdaş olduğunu göstərən mühüm hadisələrdir. Avropa institutları daxilində zaman-zaman ölkəmizə qarşı müəyyən kampaniyalar aparmağa çalışan dairələrin mövcud olmasına baxmayaraq, real geosiyasi və iqtisadi reallıqlar Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının əhəmiyyətini daha aydın göstərir. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycan qazının alıcısıdır və ümumilikdə,

Azərbaycan qazının çatdırıldığı Avropa ölkələrinin sayı 16-ya çatmışdır. Eyni zamanda, Avropa İttifaqının 27 üzv ölkəsindən üçdə biri Azərbaycanla strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Bu isə o deməkdir ki, Avropa İttifaqının üzvü olan əksər ölkələr Azərbaycanla əməkdaşlığa üstünlük verir. Ölkəmizin geosiyasi və geoiqtisadi əhəmiyyəti xüsusi ilə Orta Dəhliz və Xəzər regionunun rolunun artması ilə daha da güclənir. Birmənalı şəkildə deyə bilərik ki, Avropa İttifaqının Mərkəzi Asiyaya və Çinə açılan qapılarından biri məhz bizim ölkədir və bu proses qarşılıqlı xarakter daşıyır. Çindən və Mərkəzi Asiyadan Avropaya çıxış üçün də ən etibarlı və təhlükəsiz marşrut Cənubi Qafqaz və Azərbaycan üzərindən keçir. Biz, eyni zamanda, son günlər Azərbaycan səması üzərindən keçən marşrutun da nə qədər önəmli olduğunu görürük.

Yaxın Şərqdə, xüsusi ilə də Hörmüz boğazı ətrafında baş verən hadisələr dünya enerji bazarları üçün ciddi risklər yaradır. Həm Hörmüz boğazı, həm də Bab Əl-Məndəb kimi strateji keçidlərin bağlanması təhlükəsiz qlobal iqtisadiyyat üçün ağır nəticələr doğura bilər. Məhz belə bir şəraitdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində daha da mühüm rol oynayır ki, sonuncu səfərlə biz bir daha bunun şahidi olduq.

Antonio Koştanın ölkəmizə Azərbaycan–Avropa İttifaqı səfəri arasında əməkdaşlığın daha da genişlənəcəyinə dair mühüm siyasi mesaj idi və münasibətlərimizin daha da möhkəmlənməsinə aparacaq.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun, hörmətli sədr. Əziz həmkarlar, əvvəlcə hər kəsi İlaxır çərşənbəsi münasibəti ilə təbrik edirəm.

Bu günə bayram əhvallı, xoş bir xəbərlə başladıq – işğaldan azad olunmuş ərazilərimizdəki daha 7 yaşayış məntəqəsinə 82 ailənin qayıdışı baş tutdu. Bu o deməkdir ki, daha 368 vətəndaşımız 34 illik aradan sonra nəhayət İlaxır çərşənbəsini öz elində, obasında qarşılayacaq. Bu insanlar bayram günlərində yaxınlarının məzarlarını ziyarət edə biləcəklər.

Bilirsiniz, 82 ailənin qayıdışı – ev tikildi, şərait yaradıldı, qayıdın kimi sadə, fiziki baxımdan bərpanı ehtiva edən formuldan ibarət deyil. Möhtərəm Prezident İlham Əliyev məcburi köçkün düşən insanların vətənə qayıdışına prinsipial olaraq möhtəşəm Qələbəmizin əbədiləşdirilməsi kimi baxır. Bu mənada, cənab Samir Nuriyevin də ifadə etdiyi kimi, Əlaqələndirmə Qərargahının Xocavənd şəhərində dünən keçirilən iclası həmin torpaqlarda həyatın yenidən qurulması, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması və ləyaqətli qayıdışı nəzərdə tutan kompleks yanaşmanı əhatə edir.

Etiraf edək ki, şəhərin parıltısından kəndə qayıtmaq asan məsələ deyil. Amma cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən milli ideoloji xətt, yetişən milli təfəkkürlü nəsil Böyük Qayıdışın mahiyyətinin fərqindədir. Amma digər tərəfdən də, bu məsələ yalnız mənəvi-ideoloji elementlərə əsaslanmır.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in 5-dən biridir. Prezident İlham Əliyevin bu prosesə dövlət siyasəti və uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi yanaşması nəticəsində qayıdış zonasında infrastrukturun ən müasir səviyyədə yenidən qurulması, sosial obyektlərin fəaliyyətlərinin keyfiyyətli şəkildə təşkili öz torpağına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən sürətli adaptasiyasına imkan verir.

Təsadüfi deyil ki, bu günədək – qısa müddət ərzində, ümumilikdə, 41 yaşayış məntəqəsi artıq istifadəyə verilib. Hazırda Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır və fəaliyyət göstərir. Üstəlik, dünən Xocavənddə keçirilən iclasda da elan edildi ki, qarşıdakı dövrdə köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış proqramının miqyası genişlənəcək.

Baxın, əziz həmkarlar, biz dünyanın 40 ölkəsinin ərazisindən daha böyük bir sahəni əhatələyən əzəmətli quruculuq və Böyük Qayıdışı hansı coğrafiyada həyata keçiririk? Şimal qonşumuz artıq 4 ildir ki, müharibə şəraitində yaşayır, hər gün ölkə yüzlərcə itki verir. Cənub, sözün əsl mənasında, od içindədir. Bu gün orada başına raket, dron yağan insanların yeganə qayəsi həyatda qala bilməkdir.

Belə bir şəraitdə bir də Azərbaycanın reallığına baxın – sürətli quruculuq və bərpa işləri, sülh, sabitlik, asayiş və dayanıqlı inkişaf. Bizim gündəmimiz bu olmalıdır, yoxsa hansısa xuliqanın, siyasi dələduzun konkret əməlinə görə barəsində hüquqi məsuliyyət tədbiri? Hansısa ünsürün qulağına taxdığı “siyasi məhbus” “birkası” qalib xalqın gündəmi ola bilməz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, bildirmək istəyirəm ki, ötən həftə qardaş Türkiyənin siyasi hakimiyyətinə müxalif olan “Sözcü” qəzetində yayılan məqalədə guya ABŞ-nin planlarında Azərbaycan ərazisinin İran əleyhinə hərbi əməliyyatlar üçün istifadə oluna biləcəyi iddiası tam əsassızdır və heç bir mötəbər fakta söykənməyən dezinformasiyadır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmiz heç vaxt ərazisini üçüncü dövlətlərə qarşı hərbi əməliyyat meydanına çevirməyib və bundan sonra da çevirməyəcək.

Belə spekulyativ geopolitik ssenarilərdə məqsədi Azərbaycan və İran arasında münasibətləri gərginləşdirmək, Cənubi Qafqazı yenidən hərbiləşdirmək və Yaxın Şərqin bir parçasına döndərməkdir. Halbuki, ötən ilin iyulunda İsrail–İran 12 günlük savaşında da dövlətimiz diplomatik dialoq və regional sabitlik mövqeyi tutdu və savaşın coğrafiyasının genişlənməməsi üçün əhəmiyyətli addımlar atdı. Dövlətimizin prinsipial siyasətinə əlavə misal olaraq bildirim ki, yaxın tariximizdə ABŞ–Rusiya, NATO–Rusiya və nəhayət, Türkiyə–İsrail hərbi-siyasi rəhbərləri üçün Bakı əsas dialoq paytaxtı olmuşdu.

Bəli, geosiyasi seçimlər dövlətlərin taleyini həll edir. Bir vaxtlar Gürcüstan və Ukraynanın NATO-ya üzvlük qərarı onları silahlı toqquşmaların mərkəzinə, qarşıdurma meydanına çevirmişdi.

Azərbaycan isə fərqli yol seçdi – hərbi-siyasi neytrallığını qoruyub saxladı, ərazisində xarici hərbi bazalara yer vermədi və forposta çevrilmədi. Prezident İlham Əliyevin bloklara qoşulmamaq siyasəti İkinci Qarabağ müharibəsinin beynəlxalq xarakter almasına imkan vermədi və şanlı Qələbəmizin əsas səbəblərindən biri oldu.

Bəli, müstəqil və balanslı dövlət siyasətimizin əsası 1990-cı illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” və Bakı–Tbilisi–Ceyhan boru kəməri Rusiya, İran, Hörmüz boğazı və digər marşrutlardan asılılığa son qoydu.

İndi enerji xətləri və təchizat zəncirləri uğrunda gedən müharibələrdə Ulu Öndərin strateji seçimi nəinki ölkəmizi, həm də Cənubi Qafqaz regionunu xilas edir. Dünya təyyarədaşıyan gəmiləri və dronları müzakirə edərkən, 1768 kilometrlik polad borular Avropanın enerji təhlükəsizliyini, suverenliyimizi və regional sabitliyimizi qoruyur.

Qlobal savaşlar təkcə silahlarla deyil, onilliklər əvvəldən siyasi və iqtisadi riskləri hesablamaqla aparılır. Dövlətlər enerji təchizatının 20 faizini təmin edən Hörmüz boğazından asılı qaldığı bir vaxtda 32 il əvvəl qəbul edilən Azərbaycanın enerji strategiyası əhəmiyyətli rol oynayır.

Ölkəmizin ərazisində xarici hərbi qüvvələrin varlığına mərhələli şəkildə son qoyulub. Vaxtı ilə Qəbələ RLS-in diplomatiya ilə, Ermənistanın işğalçı qüvvələrini silahla, nəhayət, 5-ci ilini tamamlamamış Rusiya sülhməramlılarını siyasi iradə ilə çıxaran ölkəmizdə milli ordumuzdan başqa heç bir xarici baza və qüvvə yoxdur. Qalib dövlətimizi yeni qlobal qarşıdurmalara qoşmaq planları iflasa məhkumdur.

Bəli, 1990-cı illərdə sovetlərin dağılması Qarabağdan başlandı. Bu gün isə eyni regionda Azərbaycan qarşıdurma deyil, sabitlik, müharibə deyil, sülh və dialoq məkanıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də bütün təbriklərə qoşuluram. Xalqımıza və dövlətimizə firəvanlıq arzulayıram.

Bu gün dünyada əsas problemlərdən biri sabitlik və təhlükəsizlik məsələsidir ki, məhz Azərbaycan bu gün həmin sabitliyin və təhlükəsizliyin məkanıdır. Biz bunu ayrı-ayrı dövlətlərin səfirliklərinin Bakı şəhərinə yerləşdirilməsində görürük, biz bunu dövlətimizin hər bir vətəndaşının arxasında necə dayandığının, xarici ölkələrdən vətəndaşlarımızın qruplarla, təhlükəsiz şəraitdə ölkəmizə gətirilməsinə şahidlik edəndə görürük. Hər bir vətəndaş öz arxasında dövlətinin, Prezidentinin dayandığını görür və qürur hissi keçirir.

Hörmətli xanım sədr, bu gün dünyada informasiya müharibəsi hərbi müharibəni üstələyibdir. Müxtəlif mənbələrdən verilən dezinformasiyalar nəticəsində ayrı-ayrı panikalar yaratmaqla ölkələrin ərazisində xaos, anarxiya və digər addımlar atılır ki, müharibə aparmadan da müxtəlif ölkələrin ərazisində öz maraqlarını həyata keçirirlər. Biz bunu "Ərəb baharı"nda da gördük. İnternetin imkanlarından istifadə edərək həmin ölkələrin ərazisində qurulu dövlətlər yıxıldı və nəticə etibarı ilə dərin bir xaos yarandı.

Bu gün bizim ətrafımızda baş verən hadisələr onu göstərir ki, bu informasiya müharibələri uzun çəkəcək. Vaxtı ilə Rusiya–Ukrayna müharibəsi başlayanda qeyd etdilər ki, uzağı bir həftəyə bu məsələ öz həllini tapacaq. Amma 4 ildən artıqdır, davam edir və artıq İkinci Dünya müharibəsini keçibdir. Hesab etmirəm ki, bu gün Yaxın Şərqdə baş verən hadisələr də qısa zaman kəsiyində öz həllini tapa biləcək. O baxımdan da, informasiya təhlükəsizliyinin ciddi şəkildə nəzərə alınması vacibdir. Adi bir Azərbaycan hərbi hissələrinin dron uçuşunu böyük bir panikaya çevirməyə cəhd edənlərin qarşısının alınması üçün əhali ilə kifayət qədər ciddi iş aparılmalıdır. Hesab edirəm ki, burada Milli Məclisin deputatlarının üzərinə də böyük vəzifələr düşür. Həm mətbuatda, həm də görüşlərdə bu fikirlər onlara çatdırılmalıdır.

Xaricdə oturub Azərbaycanı istəməyən qüvvələrə, adı azərbaycanlı olub qanı başqa millətin qanından olan dezinformasiya yayanlara qarşı da mübarizə aparılmalıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə

həyata keçirilən sosial dövlət fəlsəfəsinin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi və rifahının daha da gücləndirilməsi prinsipi durur. Son illər Azərbaycan iqtisadiyyatında aparılan islahatlar, eyni zamanda, sosial göstəricilərə də birbaşa təsir göstərmişdi. Rəsmi statistikaya görə, hazırda Azərbaycanda 1 milyon 99 min pensiyaçı qeydiyyatdan keçib. Bu, ölkə əhalisinin 10,7 faizi deməkdir ki, onların 65 faizi yaşa görə pensiya alan vətəndaşlarımızdır.

Pensiya məbləğlərindəki artım tendensiyası davam etməkdədir. Belə ki, son 1 ildə pensiya məbləğləri 9,1 faiz artaraq orta pensiya məbləği 541 manata çatıb. 2026-cı ildə də bu tendensiyanın davam edəcəyi gözlənilir. Eyni zamanda, artımlar əmək pensiyalarının bütün növlərində qeydə alınıb. Yaşa görə əmək pensiyası 8,9 faiz, əlilliyə görə əmək pensiyası 8,7 faiz, ailə başçısını itirməyə görə əmək pensiyası məbləği isə 9,4 faiz yüksəlib. Biz ötən 1 ildə aylıq sosial müavinət alan vətəndaşların sayında da artımları müşahidə etmişik, həmin vətəndaşlarımızın sayı 4,1 faiz artıb. Hazırda 472 min vətəndaşımız aylıq müavinətlərdən istifadə edir.

Çoxuşaqlı ailələrin dəstəklənməsi ölkədə həyata keçirilən sosial siyasətin əsas prioritetləri olaraq qalmaqdadır. Nəzərə alsaq ki, son 1 ildə çoxuşaqlı ailələrdə aylıq müavinət alan uşaqların sayında 7,3 faiz, 1 yaşadək sosial müavinət alan ailələrin sayında 17,6 faiz artım qeydə alınıb.

Hörmətli xanım sədr, möhtərəm Prezidentin təşəbbüsü və Sizin sədrliyinizlə qanunvericiliyə edilən təşviqedici dəyişikliklərdən sonra əlilliyi olan uşaqların övladlığa götürülməsində ciddi irəliləyişlər müşahidə olunur. Belə ki, əlilliyi olan uşaqların övladlığa götürülməsi faktı 40 faiz artıb. Bu, əslində, ondan xəbər verir ki, qanunvericiliyə edilən uğurlu dəyişikliklər praktikada özünü doğruldur. Bu, inklüzivliyin dəstəklənməsi və əlilliyi olan

uşaqların övladlığa götürülməsi baxımından vacibdir, həm də humanitar fəaliyyətdir.

2026-cı il yanvarın 1-nə olan rəqəmə görə, bütövlükdə, 76 mindən çox ailə sosial yardım alır. Bu da 336 min nəfərin dövlət büdcəsindən birbaşa yardım alması anlamına gəlir ki, onların da böyük qismi məhz uşaqlardır. Bu proqram çərçivəsində də uşaqların dövlət tərəfindən birbaşa dəstəklənməsi həyata keçirilir. Bütün bunlar təbii ki, ondan  xəbər verir ki, 2026-cı ildə də sosial təminat tədbirləri davam etdiriləcək. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Vüqar müəllim, elə bununla bağlı mediaya açıqlama da verə bilərsiniz. Mən düşünürəm ki, Siz bunu edəcəksiniz.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz indi gündəliyin məsələlərinin müzakirəsinə keçirik. Fərid müəllim, deputat Razi Nurullayevin mikrofonu düzəldi? Razi müəllim, yoxlaya bilərsiniz? Mikrofonunuz düzəlib?

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Son dövrlərdə seçicilərlə...

**Sədrlik edən.** Çox sağ olun, Razi müəllim. Mən, sadəcə, yoxlamaq istəyirdim. Lap yaxşı, işlədi.

Hörmətli həmkarlar, biz indi gündəliyin məsələlərinə keçirik. Eybi yoxdur, Razi müəllim, eybi yoxdur.

Biz indi gündəliyin məsələlərinə keçirik. Bizim gündəliyimizdə 9 məsələ var. 1-ci məsələ “2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş “Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə”yə dəyişikliklər edilməsinə dair Protokol”un təsdiq edilməsi barədə qanun layihəsidir. Bildiyiniz kimi, beynəlxalq sənədlə bağlı olduğuna görə layihə “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməlidir. Qanun layihəsinə Beynəlxalq münasibətlər və

parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. “2000-ci il 21 iyun tarixli Protokolu ilə təsdiq edilmiş “Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə”yə dəyişikliklər edilməsinə dair Protokol” 13 oktyabr 2023-cü ildə Bişkek şəhərində imzalanmışdır.

Protokola əsasən adı çəkilən əsasnaməyə bir neçə dəyişiklik edilmişdir. Onlar Müstəqil Dövlətlər Birliyinin vahid daimi icra, inzibati və əlaqələndirici orqanları olan İcraiyyə Komitəsinin fəaliyyətini və funksiyalarının əsas istiqamətlərinə dair edilən dəyişikliklərdir. Sənəddə 6-cı bəndə, 3-cü bəndə, 4-cü bəndə müxtəlif dəyişikliklər edilmişdir.

Bizim üçün ən əsas məsələlərdən biri ondan ibarətdir ki, Azərbaycan Respublikası bu protokola dövlətlər və digər beynəlxalq hökumətlərarası təşkilatlarda siyasi əməkdaşlıq və qarşılıqlı fəaliyyət məsələlərində Baş katibin səlahiyyətlərini istisna edən qeyd-şərtlə qoşulmuşdur. Bu qeyd-şərtdə 2 əsas açar söz var: siyasi əməkdaşlıq və qarşılıqlı beynəlxalq fəaliyyət. Yəni MDB dövlətlərinin Baş katibinin bu səlahiyyətlərinə həmin qeyd-şərtlə istisna qoyulmuşdur. Azərbaycan Respublikasının milli maraqlarına tam uyğun gələn bu qeyd-şərt Müstəqil Dövlətlər Birliyinin Baş katibinin bu fəaliyyətini istisna edir.

Bizim üçün bu, ən əsas məsələlərdən biridir. Komitəmizdə bu məsələ ciddi şəkildə müzakirə olunub və yekdilliklə müsbət fikir bildirilib. Ona görə də həmkarlarımdan bu dəyişiklikləri dəstəkləməyi xahiş edirik. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim.

Müzakirələrə keçirik. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun, hörmətli sədr. Müstəqil Dövlətlər Birliyi 1991-ci ildə SSRİ-nin çöküşündən sonra 3 slavyan respublikası – Rusiya, Ukrayna və Belorusiya tərəfindən yaradıldı. Sonradan digər keçmiş sovet respublikalarının da böyük bir hissəsi Müstəqil Dövlətlər Birliyinə qoşuldu. Azərbaycan da 1993-cü ildə quruma üzv oldu. O zaman mərhum Prezident Heydər Əliyev Azərbaycanın bu təşkilata üzv olmasını qəbul edəndə bu məsələ çoxları – elə mənim özüm tərəfindən də birmənalı qarşılanmamışdı. Ona görə ki, bunun bizim suverenliyimizə, müstəqilliyimizə hansısa formada mənfi təsir göstərə biləcəyi qorxusu var idi. Amma zaman göstərdi ki, Heydər Əliyevin qərarı çox müdrik və doğru qərar olub. Allah Ulu Öndərin ruhunu şad eləsin. Bizim Müstəqil Dövlətlər Birliyinə daxil olmağımız sonradan dövlət quruculuğu prosesinə öz müsbət təsirini göstərdi və Azərbaycan dinc inkişaf yoluna keçdi. Biz müstəqil və güclü dövlət qurmaq imkanı əldə etdik.

Bu gün biz bu protokola dəyişiklik edirik. Mənim üçün burada anlaşılması çətin olan məqamlar var. Məsələn, birlikdən söhbət gedir və biz bilirik ki, bu təşkilat Rusiyanın liderliyi ilə yaradılıb. Rusiya bir tərəfdən, MDB dövlətlərinin daha sıx inteqrasiyasından, daha sıx əməkdaşlığından danışır. Amma digər tərəfdən də, bu ölkədə miqrantlara qarşı çox xoşagəlməz bir siyasət yürüdülür. Biz bilirik ki, Rusiyadakı millətçi kəsim tərəfindən miqrantlar çox təhqirlərə məruz qalır, əmlakları əllərindən alınır, inzibati orqanlar tərəfindən vəsaitləri müsadirə olunur. Amma çox təəssüf ki, dövlət səviyyəsində bu prosesin qarşısının alınması üçün lazımi tədbirlər görülmür.

Hörmətli sədr, mən hesab edirəm ki, dövlətlər də insanlar kimidir. Bəzən layiq olduqlarından artıq qiymət veriləndə, üstün diqqət göstəriləndə bunu heç də həmişə düzgün başa düşmürlər. Ona görə də Rusiya ilə açıq danışmaq lazımdır ki, siz doğrudanmı, dediyiniz kimi, MDB dövlətlərinin daha yaxın inteqrasiyasını istəyirsiniz?

Eni zamanda, miqrantların uşaqlarının təhsil alması ilə bağlı problem yaradılır. Bilirsiniz ki, indi Rusiyaya gedənlər 4 gün öncədən xüsusi internet portalından qeydiyyatdan keçməlidirlər. Miqrantların uşaqları müəyyən yaşa çatandan sonra onların Rusiyada qalması ilə bağlı xeyli dərəcədə əlavə maneələr yaradılıb. Bütün bunlara aydınlıq gətirilməlidir.

Deyir "örtülü bazar dostluğu pozar". Mən özüm də həmişə Rusiya ilə əməkdaşlığın tərəfdaşı olmuşam. Bu gün də MDB çərçivəsində daha sıx əməkdaşlığın tərəfdarıyam. Hesab edirəm ki, Azərbaycanda bir açılma olmalıdır. Biz Avrasiya məkanında Türkiyənin və İranın da daxil olduğu, eyni zamanda, MDB ölkələrinin də iştirakı ilə yeni bir Avrasiya İttifaqı qurmalıyıq ki, orada ümumi bazar, insanlarımız üçün normal biznes mühiti yaradılsın və ölkəmiz daha sürətlə inkişaf edə bilsin. Amma hesab edirəm ki, bu məsələlərlə bağlı biz Rusiya ilə ciddi danışıqlar aparmalıyıq.

Elə bu gün səhər mən "Yeni Müsavat" qəzetinin internet portalında oxudum ki, orada bir azərbaycanlı miqrantın əmlakı necə əlindən alınıb, necə təhqir olunub. Bu məsələlərlə bağlı bizim müvafiq dövlət orqanları müəyyən addımlar atmalıdırlar.

İndi belə bir tələb ilə çıxış edirlər ki, bizim orada tikintiyə işləməyə gedən insanlar rus dilini bilməlidirlər. O biri tərəfdən də, mətbuatdan oxuyuruq ki, Rusiyaya Hindistandan və başqa ölkələrdən minlərcə insan əmək bazarına cəlb edilir. Həmin o Hindistandan və başqa ölkələrdən gələn insanlar rus dilini bilirlər? Əlbəttə ki, yox.

Düşünürəm ki, bu məsələlər barədə müvafiq dövlət orqanları Rusiyanın müvafiq dövlət qurumları ilə iş aparmalıdırlar və MDB çərçivəsində bu məsələ çox ciddi şəkildə qaldırılmalıdır.

Biz belə hallara qarşı seyrci mövqe tutmamalıyıq. Mən düzdür, bu qanun layihəsinə səs verəcəyəm. Amma o narahatlıqları bölüşməyi özümə borc bildim ki, müvafiq dövlət orqanlarımız bundan nəticə çıxarsınlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Siz öz fikirlərinizi ifadə etdiniz. Mənə də müraciət etdiniz ki, Azərbaycan dövləti çox ciddi söhbət aparmalıdır. Mən düşünürəm ki, bu gün dövlətimiz çox açıq və ciddi şəkildə bütün ölkələrə özü ilə bağlı tələbləri qoyur. Rusiya da istisna deyil.

Hörmətli həmkarlar, daha heç kimin çıxışı yoxdur. Səməd müəllim, komitə rəhbəri kimi nə isə demək istəyirsiniz? Yox? Sözünüz yoxdursa, mən layihəni səsə qoyacağam. Buyurun.

**Səməd Seyidov.** Sahibə xanım, Siz, əslində, bu məsələlərin hamısına aydınlıq gətirdiniz. Əlavə bir şey yoxdur. Komitəmiz müsbət fikir bildirib. Sadəcə, bir məsələni burada qeyd edim ki, elə bax, bu qeyd-şərtlərin içərisində Qüdrət müəllimin səsləndirdiyi fikirlər var. Mən axı konkret olaraq vurğuladım ki, orada iki açar söz var: siyasi əməkdaşlıq və dövlətlərarası münasibətlər. Azərbaycanın milli maraqları nöqteyi-nəzərindən tam qorunması təmin olunur. Ona görə də, təbii ki, bu sənədin qəbul olunması zəruridir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin, buyurun.

**Səsvermənin nəticələri** (saat 11.42 dəq.)

| | |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Biz növbəti məsələyə keçirik. Bu bizim 2-ci məsələmizdir. Bu məsələ “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihə uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, adı çəkilən Konstitusiya Qanununa uyğun olaraq bir oxunuşda qəbul ediləcək. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin üzvü hörmətli Nurlan Həsənov bizə məlumat verəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. İnzibati icraat proseslərinin elektronlaşdırılması və dövlət informasiya sistemlərinin geniş tətbiqi nəticəsində bəzi inzibati xəta haqqında qərarların kağız daşıyıcıda tərtib edilərək surətinin nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulmasına artıq zərurət qalmamışdır. Hazırda inzibati xətalar barədə məlumatların elektron informasiya sistemləri vasitəsi ilə qeydiyyatı və şəxslərə çatdırılması təmin edildiyindən bu prosedurun saxlanılması praktiki əhəmiyyət daşımır. Bu səbəbdən qeyd olunan tələbin qanunvericilikdən çıxarılması hüquqi münasibətlərin sadələşdirilməsinə və inzibati icraatın daha səmərəli təşkilinə xidmət edir. Layihədə, eyni zamanda, “Yol hərəkəti haqqında” Qanuna texniki xarakterli dəyişikliklər edilir. Deputat həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, məlumata görə.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. 3-cü məsələ “Yerin təki haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli həmkarlar, üçüncü oxunuşdur. İkinci oxunuşda bizim deputat həmkarlarımızın təklifləri oldu. Biz qanunvericilik subyekti ilə danışıqlar apardıq. İndiki mərhələdə o dəyişiklikləri lazım bilmədilər. Yenidən olduğu kimi səsə qoymağı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Təklifləri verən deputatlarla danışdınız, izah etdiniz? Elə? Çox sağ olun.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur, baxıram, qanun layihəsinə aid heç kimin sualı yoxdur. Səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| --- | --- |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Bizim növbəti 4-cü məsələmiz "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Mən indi komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Təqdim edilən qanun layihəsinin əsas məqsədi müddətdən artıq hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçuların xidmətə uyğunlaşma prosesinin daha səmərəli təşkili və bu sahədə mövcud praktiki çətinliklərin aradan qaldırılmasıdır. Layihədə qadınlarla bağlanılan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azadılması nəzərdə tutulurdu.

Layihə birinci və ikinci oxunuşlardan keçib. Əlavə rəy və təkliflər yoxdur. Komitəmiz tərəfindən üçüncü oxunuşa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ ikinci oxunuşda olan qanun layihələridir. 5-ci məsələ Əmək Məcəlləsində və "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, həm bu məsələ ilə, həm də 6-cı məsələ ilə əlaqədar bizdə dəvət edilən şəxslər var – Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət xanım Yusifova və Nazirliyin Hüquq şöbəsinin müdiri Gülər xanım Mikayılova. Həm Səadət xanımı, həm də Gülər xanımı bir daha salamlayırıq. Xoş gəlmisiniz.

Hörmətli həmkarlar, layihəyə, – 5-ci məsələdən söhbət gedir, – Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Anar İsgəndərova verirəm. Buyurun, Anar müəllim.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, deputat həmkarlar və media nümayəndələri. Birinci oxunuşda "Təhsil haqqında" qanun layihəsi haqqında ətraflı məlumat vermişdim. Yəni qanunun qəbul olunmasından sonra Elm və Təhsil Nazirliyində olduğu kimi, Mədəniyyət Nazirliyi sisteminə daxil olan dövlət məktəblərində də müəllimlər attestasiya qaydası ilə deyil, sertifikasiya

imtahanı qaydası ilə müəyyən ediləcəkdir. Sertifikasiya qaydası şəffaflığa xidmət edir, obyektivliyi artırır.

Qanun layihəsi komitədə ikinci dəfə müzakirə olunmuş və plenar iclasa tövsiyə olunmuşdur. Qanun layihəsi haqqında komitəyə hər hansı təklif və rəy daxil olmamışdır.

Hörmətli xanım sədr, qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Nigar xanım Məmmədovaya söz verirəm. Nigar xanım, komitənin rəyini bildirin. Buyurun.

**Nigar Məmmədova,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi yalnız texniki hüquqi düzəlişlər deyil. Bu layihənin çox mühüm sosial tərəfi var. Sertifikatlaşdırma həm müəllimlərin sosial müdafiəsini gücləndirəcək, həm də valideynlərin təhsil sisteminə inamını daha da artıracaq.

Bir sözlə, dəyişikliklər yalnız qiymətləndirmə prosedurunun yenilənməsi deyil, eyni zamanda, təhsil sistemində şəffaflığın, sosial ədalətin və ictimai etimadın gücləndirilməsinə yönəlmiş mühüm addımdır. Həmkarlarımı qanun layihəsini dəstəkləməyə və səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Bilirsiniz ki, ikinci oxunuşda biz həmişə qanun layihəsinə əsas

kimi münasibət bildirməliyik. Mən indi bu qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Biz indi müzakirələrə keçirik. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm və lehinə səs verəcəyəm. Ancaq ikinci oxunuşun tələblərinə uyğun olaraq sənədlə bağlı bir sıra təkliflərimi təqdim etmək istərdim.

Əvvəla, hörmətli Anar müəllimin qeyd etdiyi kimi, qanun layihəsi məhz "Təhsil haqqında" Qanunda və Əmək Məcəlləsində olunan dəyişiklikləri əks etdirir. Müzakirə etdiyimiz qanun layihəsində Əmək Məcəlləsinin 67-2-ci maddəsində dəyişikliklər nəzərdə tutulub. Bu, bütövlükdə, incəsənət məktəblərində çalışan təhsilverənlərin sertifikatlaşdırma imtahanlarına cəlb edilməsini özündə ehtiva edir. Eyni zamanda, həmin maddəyə əsasən 60 və daha yuxarı yaşı olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür, yəni məcburi deyil. Həmin maddəyə əsasən digər istisna odur ki, ən azı 3 dəfə sertifikatlaşdırma imtahanında iştirak edən şəxslər imtahana cəlb olunmurlar.

Mən bir sıra region ölkələri, xüsusən də Mərkəzi Asiya ölkələrinin təcrübəsini nəzərə alaraq, bu maddə ilə bağlı bir sıra təkliflərimi söyləmək

istəyirəm. Əvvəla, sertifikatlaşdırma imtahanlarından azad olunanların, yəni istisnaların sayının artırılması məqsədəuyğun olardı. Məsələn, Qazaxıstanda və eləcə də digər Mərkəzi Asiya ölkələrində incəsənət sektorunda beynəlxalq müsabiqələrin qalibləri sertifikatlaşdırma imtahanlarından azad olunurlar. Eyni zamanda, fəxri adı olanlar da bu imtahanlara cəlb edilmir. Ona görə də bizim müzakirə etdiyimiz qanun layihəsində Əmək Məcəlləsinin 67-2-ci maddəsində istisnaların siyahısına yenidən baxılması və sayının artırılması daha məqsədəmüvafiq olardı. Çünki bir sıra hallarda beynəlxalq müsabiqələrin qaliblərinin və ya cənab Prezident tərəfindən təltif olunmuş şəxslərin sertifikatlaşdırmaya cəlb edilməsi, məncə, məqsədəuyğun deyil. Həmin şəxslər istisna hal kimi imtahanlardan azad edilənlərin siyahısına daxil edilsinlər. Fikrimcə, 67-2-ci maddədə istisnalar var və həmin siyahıya yenidən baxmaq, həmin maddə üzrə sayları artırmaq mümkündür.

Eyni zamanda, həmin maddəyə əsasən ən azı 3 dəfə imtahanlarda iştirak edən şəxslər sertifikatlaşdırma imtahanlarına cəlb edilmir. Razılaşaq ki, bu hal üçün 3 dəfə kifayət qədər böyük rəqəmdir. Əgər hər hansı bir təhsil verən vətəndaşımız, istər təhsil, istərsə də incəsənət sektorunda çalışırsa və 2 dəfə imtahanlarda iştirak edibsə, onların yenidən sertifikatlaşdırma imtahanlarına cəlb edilməsi məqsədəuyğun deyil. Ona görə mən təklif edirəm ki, Əmək Məcəlləsinin 67-2-ci maddəsində ən azı 3 dəfə deyil, ən azı 2 dəfə imtahanlarda iştirak edən və imtahanları uğurla başa vuran, yəni tələb olan balı toplayan təhsilverənlərin imtahanlardan azad olunması qeyd edilsin.

Digər bir məqam isə məhz həmin qanunvericilik tələblərinə uyğun olaraq müəyyənləşdirilmiş qaydalarla bağlıdır. Belə ki, sertifikatlaşdırma imtahanları təhsilverənlərin əmək haqlarının artırılması baxımından da

vacibdir. Çünki bu imtahanlarda iştirak etmək və yüksək bal toplamaq praktiki olaraq həmin vətəndaşlarımızın əmək haqlarının artırılması deməkdir. Düşünürəm ki, bu istiqamətdə də təkmilləşdirməyə ehtiyac var. Çünki mövcud qaydalara əsasən 30-50 bal nəticə göstərən müəllimlərimizin əmək haqlarında 10 faiz, 51-60 bal nəticə göstərən müəllimlərimizin əmək haqlarında 35 faiz artım qeydə alınır. Burada 60 bal maksimum bal sayılır. Bu o deməkdir ki, 50 faiz və daha yüksək bal toplayan müəllimlərimizin əmək haqlarında artımlar nəzərdə tutulub. Təbii ki, bu, müsbət məqamdır.

Nəzərə alsaq ki, beynəlxalq qiymətləndirmə sistemində 80 faizdən daha yüksək nəticə göstərən təhsilverənlər və təhsilalanlar üçün ən yüksək, yəni sonuncu faiz nəzərdə tutulur. Ona görə də mən təklif etmək istəyirəm ki, məhz bizim müzakirə etdiyimiz qanundan irəli gələn müəyyənləşdirilmiş qaydalarda “51 və daha çox” deyil, “48 və daha çox” bal toplamış müəllimlərin əmək haqlarının 30-35 faiz artımı həyata keçirilsin. Çünki nəticə etibarı ilə 50 bal toplamış müəllimin əmək haqqında 10 faiz, 51 bal nəticə göstərmiş təhsilverənin əmək haqqında isə 35 faiz artım nəzərdə tutulur. Əslində, biz 80 faizi bir meyar olaraq müəyyənləşdirsək və 80 faizdən daha yüksək nəticə göstərən təhsilverənlərin əmək haqlarını daha çox artırsaq, yəni 35 faiz artımı həyata keçirsək, bu, nəticə etibarı ilə imtahanlarda daha yüksək bal toplamış müəllimlərimizin, əmək haqları daha çox artmış olar. Bu da öz növbəsində imtahanlara marağın artmasına və təşviqinə imkan yaradır.

O baxımdan qanunvericiliyə uyğun olaraq, bu qaydalara yenidən baxılmasını və onların daha da təkmilləşdirilməsini təklif etmək istərdim. Bu, nəticə etibarı ilə təhsilverənlərin sosial təminatının daha da gücləndirilməsinə xidmət etmiş olar.

Təbii ki, mən qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən baxıram, yazılmışdılar, amma indi çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, biz artıq səsverməyə keçirik. Bilirsiniz ki, qanun layihəsində 2 maddə var. Mən 1-ci maddəni səsə qoyuram. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

Səadət xanım, mən Sizə səsvermədən sonra söz verəcəyəm.

İndi isə 2-ci maddəni səsə qoyuram. Xahiş edirəm, 2-ci maddəyə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Səadət xanım, buyurun, söz Sizindir.

**Səadət Yusifova,** *Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, sizin hər birinizin fikirləri dəyərlidir. Vüqar müəllim, Sizin də təklifləriniz bizim üçün maraqlıdır.

Qeyd edim ki, dediyiniz meyarlar artıq işə qəbul qaydalarında nəzərdə tutulubdur. Sadəcə, bizim bu istisnaları yenidən qanunvericiliyə gətirməyimiz üçün müəyyən prosedurlar, dövlət orqanları ilə razılaşdırma prosesi həyata keçirilməlidir – Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə. Ona görə də növbəti mərhələlərdə biz mütləq bu təklifləri dəyərləndirib nəzərə alacağıq. Sertifikasiya haqqında qanun qəbul edildikdən sonra qaydalar hazırlanacaq və bu qaydalarda da əmək haqlarının artırılma faizi ehtiva olunacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səadət xanım. Bizdə adətən elə ikinci oxunuş zamanı təkliflər dinlənilir, sonra isə onlara baxılır. Çox sağ olun.

Hörmətli həmkarlar, biz növbəti – 6-cı məsələyə keçirik. Bu, "Mədəniyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Mədəniyyət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Polad Bülbüloğluna söz vermək istəyirəm. Polad müəllim, buyurun.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri və qonaqlar. Mən də bütün təbriklərə qoşuluram, hamınıza can sağlığı və yeni-yeni uğurlar arzulayıram.

Biz birinci oxunuşdan sonra komitədə bu qanun layihəsinə bir də baxdıq və ətraflı müzakirə etdik. Mədəniyyət nazirinin müavini Səadət xanım bu gün də buradadır. Onlar da müzakirələrdə çox fəal iştirak etdilər.

Hörmətli deputatlarımızın birinci oxunuşda səsləndirilən təklifləri nəzərə alındı, müzakirə olundu. Artıq Mədəniyyət Nazirliyində ümumi fikir budur ki, yeni qanun layihəsi üzərində işləsinlər və bütün bu səslənən təkliflər nəzərə alınsın. Qanun layihəsinə ikinci oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım ki, bu, ikinci oxunuşdur və qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik, yazılanlar var. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörməli millət vəkilləri, mən ikinci oxunuşun tələblərinə uyğun olaraq konkret bəndlər üzrə təkliflərimi bildirmək istəyirəm.

Layihənin 1-ci maddəsində “Əsas anlayışlar” hissəsinə biz yeni bir ifadə gətiririk – “mədəni və yaradıcı sənaye”. Mənə elə gəlir ki, bu termin üzərində bir qədər düşünmək lazımdır. Çünki mədəni olmaq şəxsə aid bir keyfiyyətdir. “Mədəni” sözü şəxsin, ya da şəxsiyyətin sosial davranışlarının keyfiyyətini ölçür. “Sənaye” isə antropogen deyil, təsisatdır. Ona görə də mənə elə gəlir, “mədəni sənaye” ola bilməz, “yaradıcı sənaye” də ola bilməz. Yaratmaq da insana aid olan keyfiyyətdir. Bu, sənayeləşəndə artıq istehsal, quraşdırmaq, tərtib etmək olur. Yəni bu da özgəninkiləşdirilir. Ona görə də mədəniyyət və yaradıcılıq sənayesi olmalıdır.

İndi mən istəyirəm, bir az müqayisə də edək, görək, bu doğrudurmu? Məsələn, gəlin, biz sənaye sahələri üzrə terminimizi müqayisəli təhlilə cəlb edək. Maşınqayırma sənayesi – yəni özgənin sənayesi, maşınqayırmaya aid sənaye, neft sənayesi, tekstil sənayesi. Yəni bunlar şəxsə aid deyil, təsisata aiddir. Biz necə deyə bilərik – “mədəni və yaradıcı sənaye”? Görürsünüzmü, burada özgəninkiləşdirmə itir, sənayesi “sənaye” olur. Mən düşünürəm ki, bu, doğru deyil. Ona görə də, mənə elə gəlir ki, bu, “mədəniyyət və yaradıcılıq sənayesi” olsa, daha yaxşı olar.

Xanım sədr, fürsətdən istifadə edib bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Biz qanunvericilik təşəbbüsü ilə çıxış edən subyektlərlə çox yaxşı işləyirik. Amma nədənsə daim bu subyektlərin bir israrını görürük, yəni çalışırlar ki, mütləq yazdıqlarının olduğu kimi qalmasını müdafiə etsinlər. Burada 125 deputat var, müxtəlif baxışlar ola bilər. Əgər belə bir təklif varsa, onları nəzərə alın. Burada alimlər var, professorlar var. Məncə, yazdığınız mütləq keçsin deyə israrla bir tələbat olmamalıdır. Nəticə etibarı ilə bu, bir fəaliyyətdir. Dilin üslubu var, semantik mənası var, məzmunu var, terminlərin özünəməxsus mənası var. Belə hallar nəzərə alınsa, yaxşı olar. Çünki bəzən qanunvericilik subyekti hesab

edir ki, bu cür düzəlişlər onların mövqeyinə qarşıdır. Amma əsla elə deyil. Mən ümid edirəm ki, çox hörmətli Mədəniyyət Nazirliyimiz, nazir müavini hörmətli Səadət xanım da buradadır, bu mövqeyi düzgün başa düşəcəkdir. Nəhayət, biz bu məsələlərdə mədəni bir dönüş yaradacağıq. Bu, sadəcə, bir təklifdir, nəzərə alsanız, yaxşı olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Hikmət müəllim, sağ olun. Ancaq mən də onu qeyd etmək istəyirəm ki, dediniz, burada 125 nəfər deputatıq. Hər bir təklifimizə çox ciddi baxılır və lazım olan zaman da, lazım olan nə mənada – əgər bu, doğrudan da, özünü doğruldursa, həmişə öz icrasını tapır. Sizin dedikləriniz də tamamilə doğrudur. Siz təklif verirsiniz və bu təklifə də mütləq baxılacaq. Çox sağ olun.

Mehriban Vəliyeva. Buyurun.

**Mehriban Vəliyeva**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media mənsubları. İlk növbədə onu qeyd edim ki, 2026-cı ildə Prezident sərəncamı ilə qəbul olunmuş “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkəmizin mədəniyyət siyasətində yeni bir mərhələnin başlanğıcını qoyur. Bu sənəd qlobal və milli çağırışları nəzərə almaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin formalaşdırılmasını, onun davamlı inkişafını və dünya mədəni məkanı ilə əlaqələrinin genişləndirilməsini hədəfləyir. Konsepsiya xüsusi ilə Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda mədəniyyət siyasətinə daha sistemli və strateji yanaşmanı nəzərdə tutur. Sənəddə mədəniyyət yalnız irs və incəsənət sahəsi kimi deyil, həm də sosial inkişafın, yaradıcı iqtisadiyyatın, rəqəmsal informasiyanın mühüm komponenti kimi təqdim olunur. Bu baxımdan, mövcud “Mədəniyyət haqqında” Qanunun bəzi maddələrinin yenilənməsi

və yeni hüquqi mexanizmlərlə zənginləşdirilməsi zərurəti ortaya çıxır. Qanun dəyişikliyi də düşünürəm ki, bununla bağlıdır.

Bu gün mədəni və yaradıcı sənayelərin inkişafı, qrant mexanizmlərinin və investisiya təşviqlərinin genişləndirilməsi, onun qanunvericilik səviyyəsində dəstəklənməsi təqdirəlayiqdir. Təbii ki, qanun layihəsinə səs verəcəyəm. Lakin ikinci oxunuşa uyğun olaraq, bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Maddə 45.4-də verilən investisiya təşviqlərinin genişləndirilməsi ilə bağlı məsələdə mədəniyyət sahələrinin dəqiqləşdirilməsini məqsədəmüvafiq hesab edirəm. Bu məsələyə baxılması vacib şərtlərdən biridir. İndicə Polad müəllim qeyd etdi ki, konsepsiyada “Mədəniyyət haqqında” Qanun yenidən işlənəcək. Mədəniyyət konsepsiyasında irəli sürülən yeni yanaşmalar, xüsusi ilə də “mədəni diplomatiya”, “rəqəmsal mədəniyyət” anlayışlarının yeni maddələrlə təsbit olunması və qanunvericilik baxımından onun imkanlarının genişləndirilməsi zəruridir.

Həmçinin konsepsiyanın diqqət çəkən əsas istiqamətlərindən biri haqqında da danışmaq istəyirəm. Bu, mədəniyyət və təhsil sisteminin inteqrasiyası məsələsidir. Bu yanaşma təsadüfi deyil ki, müasir dövrdə cəmiyyətlər yalnız iqtisadi və texnoloji inkişafla deyil, həm də mədəni kapitalın gücləndirilməsi ilə inkişaf edir. Mədəniyyət insanın düşüncə tərzini, davranış modelini, nitqini və dəyərlər sistemini formalaşdıran əsas amillər kimi qəbul olunur. Bu baxımdan, konsepsiyada Azərbaycan dilinin inkişafı, nitq, davranış və bilgi mədəniyyəti kimi anlayışların önə çəkilməsi xüsusi əhəmiyyət daşıyır. Təbii ki, bu hədəflərin həyata keçirilməsi təhsil sisteminə inteqrasiya etmədən mümkün deyil. Müasir dəyərlər sistemində təbii ki, müəyyən aşınmalar, rəqəmsal mühitdə davranış problemləri, gənclər arasında oxu və nitq mədəniyyətinin zəifləməsi kimi tendensiyalar

müşahidə olunur. Yeni təhsil mədəniyyəti modelinin formalaşdırılmasının zəruriliyi baxımından da "Mədəniyyət haqqında" Qanuna mədəniyyət və təhsil sistemində əməkdaşlığı nəzərdə tutan ayrıca maddənin əlavə olunmasını məqsədəmüvafiq sayıram. Belə bir hüquqi mexanizm təhsil müəssisələri ilə mədəniyyət qurumları arasında institusional əməkdaşlığı gücləndirə və mədəni tərbiyənin sistemli şəkildə təşkilinə imkan yarada bilər.

Konsepsiyada qeyd olunur ki, Azərbaycan Respublikasının mədəniyyət siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla milli-mədəni dəyərlərin qorunmasına, tərbiyə potensialına və şəxsiyyətin formalaşması prosesində mədəniyyətin roluna əsaslanır. Təhsildə mədəni dəyərlərin, mədəni davranış üslubunun, mədəni ünsiyyətin yaş xüsusiyyətlərinə uyğun olaraq konkret meyarlarla yenilənməsi və inteqrasiyası bu istiqamətdə vacib addımlardan biri ola bilər. Nitq mədəniyyətinin inkişafı üçün hər yaş mərhələsi üzrə söz ehtiyatının müəyyənləşdirilməsi və normativ söz bazasının formalaşdırılması mühüm əhəmiyyət kəsb edə bilər. Beynəlxalq təcrübədə belə yanaşmalar mövcuddur. Elə ölkələr var ki, məktəbəqədər təhsildən başlayaraq ali təhsil səviyyəsinə qədər tələb olunan söz ehtiyatını normativ şəkildə müəyyən edir. Elə ölkə var ki, bu 71 min sözdür, elə ölkə var, söz bazası 42 mindir, 25 min olan da var və sair. Bu cür dərsliklərin hazırlanması nitq mədəniyyətinin formalaşmasında, ümumilikdə, dilin inkişafında mühüm rol oynaya bilir. Çünki bu istiqamət tədqiqat xarakterlidir. O sahədə, həm də söz tezliyinin formalaşması, onun işlənib hazırlanması, aktiv və passiv söz ehtiyatının işlənməsi məsələsi də diqqət mərkəzində ola bilər.

Düşünürəm ki, bunlar inkişaf üçün ən mühüm amillər hesab edilə bilər, həmçinin biz tez-tez "mütaliə mədəniyyəti" anlayışını dilə gətiririk və bu

haqda danışırıq. Bu mexanizmin hazırlanması üçün “100 mütləq kitab” anlayışının bir meyara və normativə çevrilməsini də diqqətinizə çatdırmaq istəyirəm.

Konsepsiyada digər maraqlı məsələlər də çoxdur. Düşünürəm ki, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi tərəfindən bu istiqamətlərdə yeni qanunun hazırlanmasında verilən tələblər nəzərə alınacaq və mən yazılı şəkildə bunları təqdim edəcəyəm.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Mehriban xanım. Fikirlərinizi ifadə etdiniz. Ancaq mən bir məqamı vurğulamaq istəyirəm. Heç vaxt təhsilsiz mədəniyyət ola bilməz. Ona görə təhsil və mədəniyyət sahəsinin inteqrasiyası çox vacibdir və burada Sizin dediyiniz təklifləri hörmətli qonaqlarımız da eşitdilər.

Hörmətli həmkarlar, 4 nəfər yazılıb. Nəyə görə səsə qoyaq? Bu komitənin bir neçə gün bundan əvvəl çox böyük bir iclası keçirilib. Gəlin, hamıya qulaq asaq.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. İkinci oxunuşun tələblərinə uyğun olaraq, mən də fikirlərimi bölüşmək istəyirəm. Əvvəla onu qeyd edim ki, “mədəni və yaradıcılıq sənayesi” anlayışının verilməsi çox əhəmiyyətlidir. Bu, gələcəkdə qeyri-neft sektorunun inkişafını təmin edəcək perspektivlər yaradır.

İndi isə bu maddə ilə bağlı konkret fikrimi bildirmək istəyirəm. Burada yazılır ki, mədəniyyət və yaradıcılığa əsaslanan iqtisadi fəaliyyət növlərinin məcmusundan ibarət iqtisadi münasibətlər sistemi. Məlumdur ki, iqtisadi münasibətlər sistemi çox geniş bir anlayışdır. Burada konkret tərif verilir.

Ona görə də bütün fikirlər tam aydın olmalıdır. Hesab edirəm ki, biz bir redaktə xarakterli anlayış təqdim etsək, daha dəqiq olar.

“Mədəni və yaradıcılıq sənayesi” mədəni və yaradıcılıq məhsul və xidmətlərinin istehsalı, maliyyələşdirilməsi, yayımı və satışı ilə bağlı fəaliyyət toplusudur. Artıq burada hansı iqtisadi münasibətlər sisteminin olduğu öz əksini tapır. İstehsal, satış, xidmət və maliyyələşdirilmə. Burada bu terminologiya ilə bağlı fikirlər səsləndirildi, hesab edirəm ki, əhəmiyyətli fikirlərdir. Düzdür, “məcmu” sözü iqtisadi və hüquqi termin olaraq oturuşsa da, biz “qanunvericilik toplusu” deyirik. Mən düşünürəm ki, bu məsələdə “məcmu” sözünü “toplu” sözü ilə əvəz edə bilərik. “Realizə” sözü də beynəlxalq bir termindir. Ancaq onun anlamı da satış və yayımdır. Ona görə də hər iki ifadəni burada söylədim.

Digər bir təklifimi də səsləndirmək istərdim. Məlumdur ki, ölkəmizdə mədəniyyət sahəsində getdikcə daha böyük nailiyyətlər müşahidə olunur və bu turizmin ölkəmizdə inkişafında əhəmiyyətli rol oynayır. Bizim bu qanunu qəbul etməyimiz bu sahədəki fəaliyyəti daha da genişləndirəcək. Bizdə sənaye parkları mövcuddur. Sumqayıtda sənaye parkı, digər rayonlarımızda da sənaye parkları və sənaye məhəllələri var. Dövlət tərəfindən mədəni yaradıcılıq sənaye parklarının da yaradılması bu sahədəki inkişafı sürətləndirər. Hesab edirəm ki, elə bir sənaye parkının inşa edilməsi, fəaliyyət göstərməsi üçün ən məqbul məkanlardan biri Qaradağ rayonunun Qobustan qəsəbəsindəki Qobustan qoruğu ətrafındakı böyük ərazidir. Çünki həm hörmətli Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü və rəhbərliyi ilə Qobustan qoruğu tamamilə yenilənib və orada çox zəruri infrastruktur mövcuddur. Eyni zamanda, il ərzində palçıq vulkanı ilə bağlı oraya xeyli sayda xarici turist gəlir. Həmin məkanda da sənaye məhəllələrinin yaradılması, bütövlükdə, qarşıya qoyulan məqsədlərə çox

böyük töhfə vermiş olar. Kino pavilyonlarıdır, televiziya çəkilişləridir – bunları orada asanlıqla icra etmək mümkündür. Həm açıq məkan var, həm də təbiət çox əlverişlidir. Düşünürəm ki, bütün bunlar öz müsbət nəticələrini vermiş olacaq. Təşəkkür edirəm, qanun layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim.

Gülşən Paşayeva. Buyurun.

**Gülşən Paşayeva.** Hörmətli sədr, hökumət nümayəndələri, millət vəkilləri və media mənsubları. İlk olaraq qeyd etmək istəyirəm ki, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsini dəstəkləyirəm. Hesab edirəm ki, terminoloji baxımdan həmkarlar tərəfindən qaldırılan məsələlər yerindədir və maraqlıdır. Yeni bir terminin, daha doğrusu, iki terminin əlavə edilməsi həm birinci, həm də ikinci oxunuşda müəyyən müzakirələrə səbəb olur. Ancaq biz əgər qeyd etsək ki, artıq "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın tədbirlər planında və eləcə də "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasında bu terminlər əks etdirilib. Əlbəttə, o sənədlərdə bu terminlər artıq öz yerini tapıbsa, mənə elə gəlir ki, qanunda da belə bir dəyişikliyin edilməsinə ehtiyac vardır. İkinci məsələ, bu qanunla əlaqədar "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi ilə bağlıdır. Çünki həmin o qanunda mən belə başa düşürəm ki, hüquqi və fiziki şəxslərə qrantların verilməsi ilə bağlı hər hansı bir məsuliyyətin müəyyən edilməməsinə baxmayaraq, mədəniyyət məsələləri ilə bağlı Nazirlər Kabinetinin 2014-cü ildə qəbul etdiyi qərara əsasən bu, daha çox qeyri-hökumət təşkilatlarına aid edilirdi. Ona görə bugünkü qanuna ancaq QHT-lərə deyil, hüquqi şəxslərə də, fiziki şəxslərə mədəniyyətlə birbaşa bağlı proseslərdə qrant almağa imkan verilməsi məsələsi qaldırılır. Mənə

elə gəlir ki, bu, olduqca vacibdir. Ölkəmizdə mədəniyyət sahəsində qaldırılan bir sıra məsələlər var ki, doğrudan da, həllini tapmalıdır. Bu mənada dövlət–özəl əməkdaşlığı baxımından da bütün imkanlardan istifadə edərək mədəniyyət sahəsindəki məsələləri həll etməyə çalışmalıyıq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Gülşən xanım. Ancaq mən də öz növbəmdə onu deməliyəm ki, bu, qanun layihəsidir. Burada təkliflər var və hər bir deputatın hüququdur ki, təqdim olunan maddəyə öz münasibətini bildirsin. Qanundan yuxarı heç nə yoxdur.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli media nümayəndələri, mən də qanunda terminoloji baxımdan bəzi məqamlara aydınlıq gətirmək istəyirəm. “Mədəni və yaradıcı sənayelər” məsələsi ilə bağlı.

Müzakirə olunan terminoloji məsələ zahirən texniki xarakter daşısa da, əslində, qanunvericilik dilinin dəqiqliyi, dövlət siyasətinin konseptual çərçivəsi, Azərbaycan ədəbi dilinin norma və prinsipləri ilə sıx bağlıdır. Bu kontekstdə “mədəni və yaradıcı sənaye” ifadəsinin qanunvericilikdə təsbit edilməsi daha məqsədəuyğundur.

Azərbaycan dilinin izahlı lüğətinə əsasən mədəniyyət (isim) – insan cəmiyyətinin maddi və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin, həmçinin xalqın müəyyən dövrdəki inkişaf səviyyəsinin məcmusudur. İzahlı lüğətə görə yaradıcılıq (isim) – insanın unikallığı ilə seçilən yeni maddi və mənəvi sərvətlər yaratmağa yönəlmiş məqsədyönlü fəaliyyətidir. Sənaye (isim) – xammal və materialların hasilatı, emalı və istehsalı ilə məşğul olan, maşın və avadanlıqlar vasitəsi ilə məhsul yaradan xalq təsərrüfatının aparıcı sahəsidir. Ümumilikdə isə, iqtisadi fəaliyyət sahəsidir.

“Sənayesi” sözü ismin təsirlik halıdır. Azərbaycan dilinin daxili məntiqinə görə, təyini münasibətlər qurularkən əsas tərəfin, yəni sənayenin xüsusiyyətlərini açmaq üçün sifətlərdən istifadə olunması üstünlük təşkil edir.

“Mədəniyyət və yaradıcılıq sənayesi” modelində üç isim yan-yana gələrək ağır konstruksiya yaradır. Bu, prinsip etibarı ilə dilimizin atributiv birləşmə prinsiplərinə uyğun deyil. “Mədəni” və “yaradıcı” sözləri sifət funksiyasında çıxış edərək, sənayenin mahiyyətini daha çevik və aydın ifadə edir. Sifət + sifət + isim modeli dilin morfoloji imkanlarından daha səmərəli istifadə edir.

Terminoloji dəqiqlik baxımından “yaradıcılıq” – yəni proses/məfhum və “yaradıcı” xarakter/təyinedici sözləri arasında ciddi fərq var. Yaradıcılıq sənayesi birləşməsi yaradıcılığın bir xammal kimi emal olunduğu müəssisə təəssüratını yaradır.

Yaradıcı sənaye isə həmin sahənin intellektual və innovativ təbiətini, Ontoloji statusunu göstərir. Eyni ilə “mədəniyyət sənayesi” ifadəsi mədəniyyətə aid olan qurumların izafət münasibətinə, “mədəni sənaye” isə fəaliyyətin tipologiyasına işarə edir.

Beynəlxalq terminologiyada hər iki təyinedici komponent sifət formasındadır. Azərbaycan dilində bu terminin üç isimlə ifadə edilməsi həm üslub ağırlığı yaradır, həm də elmi mətndə fikrin axıcılığına mane ola bilər. Akademik yazı normaları mürəkkəb məfhumların daha yığcam və sintaktik cəhətdən əlaqəli ifadə olunmasını tələb edir.

Bu baxımdan “mədəni və yaradıcı sənaye” termini həm Azərbaycan dilinin qrammatik qanunauyğunluğuna, uzlaşma və idarə əlaqələrinə, həm də terminoloji dəqiqlik prinsiplərinə daha çox uyğun gəlir. Bu formanın

istifadəsi elmi ədəbiyyatda üslub xətalarının və anlayışın mahiyyətinin daha doğru mənimsənilməsinə xidmət edə bilər.

Fikrimi sonlandıraraq sadə bir nümunə gətirirəm. Biz iqtisadi zonalar deyirik, iqtisadiyyat zonaları demirik. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət müəllim, deyəsən, bu terminlə bağlı sualınız var? Bilirsiniz, 1 dəqiqədir? Buyurun.

**Hikmət Məmmədov.** Qısa “dissertasiya işi”nə görə Elçin müəllimə təşəkkür edirəm. Amma “mədəni” sözünün semantikasını izah etmədi. Mənə elə gəlir ki, bütün məzmun bunun altında idi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tahir Mirkişili. Buyurun, Tahir müəllim.

**Tahir Mirkişili.** Çox sağ olun, xanım sədr. Mən də ilk növbədə, xanım sədr, Sizi və bütün həmkarlarımı bugünkü bayram münasibəti ilə təbrik edirəm. Allah xalqımızı hər bir bəladan qorusun, həmişə belə təhlükəsiz şəraitdə və firavan günlərdə yaşayaq.

İkincisi, Mədəniyyət Nazirliyinə təşəkkür edirəm ki, öz sahələrində iqtisadi fəaliyyətə bu qədər diqqət yetirirlər. Həqiqətən də, bu sahənin iqtisadi perspektivləri kifayət qədər böyükdür.

Xanım sədr, terminlə bağlı, Siz keçən dəfə də demişdiniz, birinci oxunuşda da bu məsələ müzakirə olunmuşdu, Hikmət müəllim də ifadə etdi. Mən bir məsələ ilə bağlı öz fikrimi demək istəyirəm, çünki bu sənaye ilə bağlı olduğu üçün düşünürəm ki, həm də iqtisadi məsələdir.

Azərbaycan dilində həm “sənaye”, həm də “sənayesi” sözü istifadə olunur. Sadəcə, iki fərqli söz var. Əgər “sənaye” sözünü istifadə ediriksə, onun qarşısında həmin sənayenin xarakterini bildirən söz istifadə olunur. Məsələn: “ağır sənaye”, “yüngül sənaye”. Ağır sənaye o deməkdir ki, bu sənayedə istifadə olunan proseslər özü də ağırdır. Yüngül sənaye o

deməkdir ki, bu sənayedə istifadə olunan proseslər daha yüngüldür. Məsələn, biz tekstil istehsal olunduğu sənaye sahəsinə – yüngül sənaye deyirik. Amma "mədəni sənaye" deyəndə, belə bir təəssürat yaranır ki, bu sənaye prosesinin içində baş verən hadisələr mədəni hadisələrdir. Onda avtomatik sual yaranır: qeyri-mədəni sənaye də olur?

Nə zaman ki, biz "sənayesi" sözünü işlədirik, onda avtomatik olaraq biz artıq ondan əvvəlki sözün məhsullarının istehsal olunduğu sənayeni deyirik. Məsələn, biz deyəndə ki, "neft və kimya sənayesi", bu o deməkdir ki, bu sahədə istifadə olunan məhsullar neft və kimya ilə bağlıdır. Biz deyəndə ki, "kənd təsərrüfatı sənayesi" o deməkdir ki, məhsullar kənd təsərrüfatı sənayesi ilə bağlıdır.

Düzdür, mən dilçi deyiləm, amma bir iqtisadçı olaraq fikrimi demək istədim. Hesab edirəm ki, əgər konsepsiyaya zidd deyilsə və yaxud da qanunda bunu dəyişmək mümkündürsə, normalda olmalıdır – "mədəniyyət və yaradıcılıq sənayesi". Təşəkkür edirəm, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Mən, əslində, elə bildim ki, Siz Mehriban xanımın qaldırdığı məsələ ilə bağlı – mədəniyyət və süni intellektdən danışacaqsınız. Ancaq Siz başqa tərəfə döndərdiniz.

Fəzail İbrahimli. Fəzail müəllim, buyurun.

**Fəzail İbrahimli.** Təşəkkür edirəm, Sahibə xanım. Burada bu söz kifayət qədər demokratikləşdirildi. Amma heç bir fərdin istəyindən asılı olmayan məqamlar, dilin tələbləri var. Bəzən dilin tələbləri qalır kənarda, ancaq fikrini ifadə etmək üçün dilini dartıb boğazından çıxardırlar. Bu sözlə bağlı Hikmət müəllim dedi, – "mədəni və yaradıcı sənaye". Məgər sənayenin mədənisi, yabanısı olur? "Mədəni" sözünün əks qarşılığı "yabanı" deməkdir.

İkincisi, yaradıcı sənaye. Sənaye öz-özünə yaranmır ki. Yaradıcılıq vasitəsi ilə sənayedən nə isə əldə olunur. Üçüncüsü, siz fikir verin, burada bir neçə budaqlı tabeli mürəkkəb cümlədən istifadə olunur. Bu cümlələrin heç birinin arasında da qarşılıqlı əlaqə yoxdur. Bu cümlələri oxuyursan, axırda heç nə başa düşmürsən.

Məsələn, gəlin, diqqət yetirək. "Mədəni və yaradıcı sənaye – mədəniyyətə və yaradıcılığa əsaslanan iqtisadi fəaliyyət növlərinin məcmusundan ibarət, iqtisadi münasibətlər sistemini, habelə mədəniyyət məhsullarının və xidmətlərinin istehsalını və realizə edilməsini təmin edən fəaliyyət sahəsidir". Birincisi, "mədəni" yox, burada bu fikri deyəni dəstəkləyirəm – "mədəniyyət və yaradıcılıq sənayesi" olmalıdır. Bunu deyəndə qanunu tələb edənlərin mənafeyinə zidd olan nədir? Kim necə istəyir, elə də yaza bilməz. Dilin tələbləri var.

Qaldı ki, qalan hissələrin hər birini ayrı-ayrı fikirləri ifadə edən cümlələrə bölüb – sən nə istəyirsən? sualına cavab verilməlidir. Məsələn, köhnə variantda görün necə yazılır: "mədəniyyət sənayesi". Çox aydın şəkildə "mədəniyyət məhsullarının və xidmətlərinin istehsalını və realizə edilməsini təmin edən fəaliyyət sahəsidir". Orta məktəbi bitirməyən uşaq da bunu oxuyanda hər şeyi başa düşür. Deyir, mən "Tarixi-Nadiri" yarıya qədər oxumuşam, amma bunu başa düşmürəm.

Cümlə yerində deyil, fikirlər tamamlanmır, Azərbaycan dilinin tələbləri pozulur. Burada mahiyyəti, fəlsəfəni saxlayaraq fikir və cümləri dəyişdirib yerinə oturtmaq lazımdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fəzail müəllim.

Hörmətli həmkarlar, daha bu məsələ ilə bağlı çıxış etmək istəyən yoxdur. Bir sıra təkliflər verildi. Təbii ki, onlara baxılacaq. Səadət xanım, biz səsverməyə keçirik, sonra mən istəyirəm, Sizə söz verim. Olarmı?

Hörmətli həmkarlar, biz indi maddələr üzrə səsverməyə keçirik. Bu layihədə 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. İndi xahiş edirəm, birinci 3 maddəyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Buyurun. İlk 3 maddə qəbul edildi.

İndi isə 4-cü, 5-ci və 6-cı maddələrə səs verməyinizi xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə ikinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli Səadət xanım, buyurun, söz Sizindir.

**Səadət Yusifova.** Təşəkkür edirəm, xanım sədr. Bütün millət vəkillərinə qeydlərinə, təkliflərinə və dəyərli fikirlərinə görə təşəkkür edirəm.

Qeyd etmək istərdim ki, istənilən məsələyə bu kontekstdə baxmaq lazımdır. İsmin müvafiq hallarında bu ifadə normal səslənir və bununla bağlı kifayət qədər nümunələr vardır. Millət vəkilləri tərəfindən "yüngül sənaye" sözü qeyd olundu. Bundan əvvəl işlədilmiş "mədəni maarif" kimi terminlərdə bu sözdən geniş istifadə olunmuşdur.

Qeyd edim ki, "mədəni və yaradıcı sənayelər" anlayışı yeni deyil, Gülşən xanımın da söylədiyi kimi, bir sıra aktlarda artıq öz əksini tapıb – "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasında, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda. Nazirlər Kabinetinin mədəni və yaradıcı sənaye sahələrinə aid fəaliyyət növlərinin, xidmətlərin, məhsulların siyahısında da bu anlayışdan geniş istifadə olunur. Bu anlayışın qanunda əks olunmasında YUNESKO-nun statistika qaydalarından istifadə olunub. Ola bilər, bəlkə də tərcümədə hansısa bir yanlışlıq olsun. Amma artıq bu bizim qanunvericilik təcrübəsinə daxil edilib.

Əgər biz hazırda qanunda deputatların təklif etdiyi dəyişiklikləri etsək, ondan əvvəlki qanunvericilik aktlarında da bir sıra düzəlişlər aparmaq məcburiyyətində qalacağıq. Yəni bu uzun bir proses olacaq və onda, ümumiyyətlə, qanunvericilik texnikasını yenidən işləməli olacağıq. Çünki yüzlərcə belə qanun var ki, orada Azərbaycan dilinin qrammatik quruluşuna tam riayət olunmur, amma bu kontekstdə çox normal səslənir.

Burada “mədəni yaradıcı sənaye parkları” məsələsinə toxunuldu. Qeyd edim ki, bizim bu istiqamətdə layihələrimiz artıq işlənir. Mədəni yaradıcı sənayenin tərkib hissəsi olan Kino Sənaye Parkı üzərində iş gedir, o, Cəfər Cabbarlı adına kinostudiyanın bazasında yaradılacaq. Lakin bu, Qobustan qoruğu çərçivəsində ola bilməz. Çünki qoruğun qanunla müəyyənləşdirilmiş məhdudiyyətləri var. Digər mədəni yaradıcı sənayelərlə bağlı layihələrimiz nəzərdə tutulub. Xüsusi ilə işğaldan azad olunmuş ərazilərdə pilot layihələr şəklində çoxfunksiyalı məkanlarda bunlar öz əksini tapacaqdır. Əgər hansısa başqa sual varsa, onlara da cavab verməyə hazıram.

Gülşən xanım qrantlarla bağlı burada çox gözəl bir məqamı qeyd etdi. Yaradıcı insanlar fiziki şəxs olaraq fəaliyyət göstərir və ya hüquqi şəxs formasında VÖEN alırlar. Lakin onların bir çox hallarda fəaliyyətləri satınalma predmeti ola bilmir. Ona görə də “Qrant haqqında” Qanunda dəyişikliklərin edilməsinə zərurət var. Biz həmin yaradıcı insanların imkanlarından mədəni yaradıcı sənaye prosesində daha fəal istifadə edə bilərik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səadət xanım. Ancaq mən də öz növbəmdə bir məsələni deyəcəyəm. Bəli, həm Gülşən xanım, həm də Siz doğru dediniz ki, bundan əvvəl qəbul olunan aktlarda bu termin var. Ancaq yenə də mən onun tərəfindəyəm ki, bu qanun layihəsi bizə təklif olunur və mənim hörmətli həmkarlarımın burada öz fikirlərini bildirməyə tam hüquqları var. Onlar da hər biri öz təklifini verdi. Mən düşünürəm ki, bununla bağlı sonra yenə də müzakirələr olacaq və bizə də cavab veriləcək. Həmişə biz bu qaydada işləmişik.

Siyavuş müəllim, Vüqar müəllim, nəyə yazılmısınız? Siyavuş müəllim, nəyə yazılmısınız indi?

Çox sağ olun, Səadət xanım. Çox sağ olun, Günay xanım. Bizi sizi yola salırıq.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 3 məsələ qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Odur ki, mən həmişə olduğu kimi, xahiş edirəm, müzakirə zamanı çıxışlarda birinci oxunuşun tələblərinə əməl edək.

Gündəliyin 7-ci məsələsinə keçirik. Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə təqdim olunur. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirəyə təqdim edilən məsələ dövlət büdcəsi, məqsədli büdcə fondları, büdcədənkənar dövlət fondlarından ayrılan vəsaitlərin təyinatı üzrə istifadə edilməsi zamanı büdcə intizamı, dövlət maliyyə maraqlarını pozan münasibətləri nəzərdə tutur. Bu məsələnin bir hissəsi digər layihədə – gündəliyin 9-cu məsələsində öz əksini tapmışdır.

Qeyd etmək istərdim ki, təqdim edilən layihələrə əsasən dövlət orqanları, habelə anlayışı layihədə verilən hüquqi şəxslər tərəfindən təyinatından kənar istifadə olunan vəsaitin məbləği 50 min manata qədər olduqda inzibati xəta kimi nəzərdə tutulması, bu məbləğdən yuxarı olduqda isə, yəni xeyli miqdarda törədildikdə bu əməllərin cinayət məsuliyyətinə səbəb olması təklif edilir.

Hörmətli həmkarlar, dəyişikliyə əsasən qüvvədə olan qanunvericiliyin mətnindən fərqli olaraq həm İnzibati Xətalar Məcəlləsinin 410-cu

maddəsinə, həm də Cinayət Məcəlləsinin 308-1-ci maddəsinin "adına dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri əlavə edilməklə onlara ayrılan vəsaitin də təyinatından kənar istifadə edilməsinin sanksiyalaşdırılması təklif edilir.

Bildiyimiz kimi, Cinayət Məcəlləsinin 308-1-ci maddəsi məcəlləyə 2016-cı ildə əlavə edilmişdir. Bu cinayətin obyekti dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən istifadə sahəsində yaranan, büdcə intizamı və dövlət maliyyə maraqlarını qoruyan ictimai münasibətlərdir. Bu maddənin qəbulundan 10 il keçib və bu müddət ərzində dövlətə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin dairəsi də kifayət qədər genişlənmişdir.

Bununla belə, son illərdə dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında dövlət başçısı tərəfindən qəbul edilmiş bir sıra normativ hüquqi aktlar var. 29 dekabr 2025-ci il və 25 avqust 2025-ci il tarixli fərmanları mən xüsusi ilə qeyd etmək istərdim. Aparılmış institusional islahatlar hüquqi şəxslərin birləşməsi, yenidən təşkil edilmə, optimallaşma siyasəti dövlətə məxsus olan hüquqi şəxslərin vəsaitlərinin təyinatı üzrə istifadəsinə nəzarəti artırmışdır.

Dövlət mülkiyyətində olan və paylarının, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili qaydaları da təsdiq edilmişdir.

Qeyd edilənlərin məntiqi davamı olaraq bu gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihəsində cəza siyasətinin məqsədi dövlətə məxsus olan hüquqi şəxslərə də ayrılan vəsait qanunsuz istifadə

edildikdə cinayətin və inzibati xətanın predmeti dairəsinə əlavə etməkdən ibarətdir.

Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklərə görə cərimə cəzasının konkret məbləğlə deyil, birbaşa vurulan zərərlə əlaqələndirilməsi və təyinatından kənar istifadə olunan vəsaitin yüz faizi miqdarında müəyyən edilməsi təklif edilir. Eyni zamanda, külli-miqdarda törədilən cinayət əməllərinə görə cəzaların dairəsinə üç ilədək müddətdə azadlığın məhdudlaşdırılması cəzası da əlavə edilir.

Hər iki məcəlləyə edilən dəyişikliyə görə qanunvericilikdə nəzərdə tutulmuş əməli ilk dəfə törətmiş şəxsin müvafiq məsuliyyətə səbəb olmuş vəsaiti tamamilə ödədiyi halda məsuliyyətdən azad olunmasının təklif edilməsi də hesab edirəm ki, dövlətin humanizm siyasətinin nümunəsi hesab oluna bilər.

Hörmətli həmkarlar, bu mühüm layihəyə səs verməyinizi sizdən xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əminə xanım.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bu, vacib bir qanun layihəsidir. Mən də sənədi dəstəkləyirəm. Hörmətli Əminə xanıma çox ətraflı təqdimatına görə təşəkkür edirəm.

Müzakirə etdiyimiz qanun layihəsi dövlət vəsaitlərindən səmərəli istifadə edilməsi baxımından vacib dəyişiklik hesab olunur. Xüsusən də son illər aparılan iqtisadi islahatlar büdcə vəsaitlərinin daha səmərəli istifadə edilməsinə və bu istiqamətdə şəffaflığın gücləndirilməsinə xidmət edir. Cənab Prezident tərəfindən bir müddət öncə rəqəmsal dövlət maliyyəsi informasiya sisteminin yaradılması ilə bağlı imzalanan sənəd, eyni zamanda, bununla bağlı əsasnamənin təqdim olunması dövlət

vəsaitlərinin istifadəsi zamanı elektron xidmətlərdən daha yaxından yararlanmağa imkan yaradacaq. Milli Məclisdə də Prezident tərəfindən imzalanmış sənədə uyğun olaraq, 3 mühüm qanunvericilik aktına dəyişikliklər həyata keçirildi ki, bu da büdcənin hazırlanması, təqdimatı, eyni zamanda, dövlət vəsaitlərindən istifadə zamanı və dövlət satınalmalarında elektron xidmətlərdən daha yaxından istifadəyə yol açacaq.

Qanun layihəsinin konseptual istiqamətlərinə və eləcə də birinci oxunuşun tələblərinə uyğun olaraq, bir neçə məqamı təqdim etmək istərdim. Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycanda rəqəmsal həllərdən və eləcə də süni intellektdən istifadə prioritetdir. Bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi, eyni zamanda, fərqli proqramların həyata keçirilməsi reallaşıb. O baxımdan təklif etmək istərdim ki, dövlət vəsaitlərindən daha səmərəli və daha şəffaf istifadə üçün dövlət satınalmalarında da süni intellektdən daha çox istifadə imkanlarına baxılsın. Çünki bu, bir tərəfdən, qərarların daha çevik, daha səmərəli və daha şəffaf qəbul edilməsinə imkan yarada bilər. Bir sıra hallarda, xüsusən rəqabətli tenderlərdə ehtimal olunan qiymətlə müqavilə qiyməti arasında fərq kifayət qədər böyük olur. Belə ki, Hesablama Palatasının hesabatına əsasən rəqabətli satınalmaların 43 faizindən çoxunda ehtimal olunan qiymətlə müqavilə qiyməti arasında 20 faizdən artıq fərq var.

Təbii ki, ehtimal olunan qiymətlə müqavilə dəyəri arasında fərqin böyük olması dövlət vəsaitlərindən səmərəli və şəffaf istifadəyə müsbət təsir göstərir. Bu, Hesablama Palatası tərəfindən xüsusi təklif olunan məqamlardan biridi və burada ehtimal olunan qiymətin müəyyənləşdirilməsində süni intellektdən istifadə imkanları təklif olunur. O baxımdan bizim müzakirə etdiyimiz qanun layihəsinin konseptual istiqamətinə uyğun olaraq, dövlət satınalınmalarında tender qərarlarının

qəbul edilməsində, eləcə də ehtimal olunan qiymətin müəyyənləşdirilməsində süni intellektdən istifadənin vacibliyini qeyd etmək istərdim. Çünki bu, bir tərəfdən, kənar intervensiyaların minimumlaşdırılmasına, qərarların qəbul edilməsindəki subyektiv mülahizələrin azalmasına gətirib çıxarda bilər ki, nəticə etibarı ilə, bu da, bütövlükdə, dövlət vəsaitlərinin daha səmərəli istifadə edilməsinə səbəb olar. Nəzərə alsaq ki, bir sıra ölkələrdə dövlət satınalmalarında süni intellektdən sıx şəkildə istifadə olunur, Azərbaycanda da bu istiqamət prioritet olduğuna görə dövlət satınalmalarında və tenderlərdə süni intellektdən daha yaxından istifadə olunması məqsədəuyğun olardı.

Hörmətli xanım sədr, bu gün hörmətli Əminə xanım tərəfindən də qeyd olundu, mən müzakirə etdiyimiz Cinayət Məcəlləsinin 308.1-ci maddəsi ilə bağlı da təklifimi bildirmək istərdim. Çünki ikinci oxunuşda bununla bağlı zaman almaq istəməzdim. Təklifim budur ki, Cinayət Məcəlləsinin 308-1-ci maddəsinə publik hüquqi şəxslər də əlavə olunsun. Nəzərə alaq ki, publik hüquqi şəxslər dövlət büdcəsindən kifayət qədər böyük məbləğdə vəsait alırlar. 2025-ci ildə publik hüquqi şəxslərə ayrılan vəsaitin həcmi 1 milyard 163 milyon manat nəzərdə tutulmuşdu. 2026-cı ildə təsdiq olunmuş dövlət büdcəsinə əsasən bu istiqamətdə 895 milyon manatdan artıq vəsait ayrılacaq. Yəni bu o deməkdir ki, 2026-cı il ərzində publik hüquqi şəxslər dövlət büdcəsindən 895 milyon manat vəsait almış olacaqlar. O baxımdan həmin maddədə dəyişiklik edilir və yeni əlavələr var. Rəqəmlər də göstərir ki, publik hüquqi şəxslərə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi kifayət qədər böyükdür və ona görə də bu istiqamətdə səmərəliliyin və şəffaflığın gücləndirilməsi olduqca vacibdir. Publik hüquqi şəxslərin də Cinayət Məcəlləsinin 308-1-ci maddəsinə əlavə olunması da məhz buna xidmət edir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, müzakirə etdiyimiz qanun layihəsi dövlətə məxsus vəsaitlərin səmərəli, məqsədli və nəticəli şəkildə istifadə olunmasını səciyyələndirən mühüm bir addımdır. Məlumdur ki, mövcud qanun layihəsində yalnız məqsədli büdcə fondlarının xərclənməsindən və o xərclənmədə kənarlaşma varsa, ondan söhbət gedirdi. İndi isə büdcədənkənar dövlət fondları, eyni zamanda, vəsaiti dövlətə məxsus olan hüquqi şəxslər də bu siyahıya əlavə olunur. Burada ən əhəmiyyətli məsələ nədən ibarətdir? Məlumdur ki, cənab Prezident hər il dövlətin həyata keçirəcəyi prioritet istiqamətləri müəyyənləşdirir. Bu, dövlət büdcəsində, digər proqramlarda, hüquqi aktlarda öz əksini tapır. Əgər nəzərdə tutulan məqsədlərdən yayınma varsa, deməli, ümumən, həyata keçirilən proseslərə öz əks təsirini göstərir. Bu baxımdan da, qanunun qəbul olunması çox əhəmiyyətlidir. İkinci bir məsələ – həm hüquqi şəxslərin sənədə əlavə olunması ilə bu prosesdəki neqativ halların qarşısını almaq mümkün olacaq. Ancaq biz prosesi elə tənzimləməliyik ki, müasir texnologiyaların, müasir yanaşmaların, – bayaq Vüqar müəllim dedi, – süni intellektin, eləcə də digər informasiya sistemlərinin daha da təkmilləşdirilməsi sahəsində bəzi neqativliklərin qarşısını almağı asanlaşdıraq. Məlumdur ki, dövlət büdcəsinin vəsaitlərinin xərcləri dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirilir və bu vəsaitlərin kənarlaşması minimuma endirilib. Eləcə də büdcədənkənar fondların və vəsaiti dövlətə məxsus olan hüquqi şəxslərin də xərclərinin prosesi dövlət xəzinədarlığı vasitəsi ilə həyata keçirilsə, çox effektiv nəticə verə bilər.

Mən xatırlayıram, hörmətli Heydər Əsədovun rəhbərliyi ilə xəzinədarlıqda xərclərin həyata keçirilməsinin təlimatı hazırlanmışdı.

Həmin təlimatda hətta 30 faizi dövlətə məxsus olan vəsaitlərin də dövlət xəzinədarlığı vasitəsi ilə xərclərinin həyata keçirilməsi öz əksini tapmışdır. Fikrimi konkretləşdirim. Yəni dövlətə məxsus olan bütün aktivlərin dövlət xəzinədarlığı vasitəsi ilə xərclərinin həyata keçirilməsi bu istiqamətdə çox böyük effekt verə bilər. Qanun layihəsində bu nüansın dəqiqləşdirilməsi də yaxşı olar. Dövlət büdcəsinin vəsaitlərinin kənarlaşdırılmasında iki amil mövcuddur. Birincisi, tutaq ki, təmir üçün hər hansı bir vəsait nəzərdə tutulub. Həmin müəssisənin, deyək ki, büdcə təşkilatının, yaxud da qeyri-büdcə təşkilatının – hüquqi şəxsin rəhbərliyi onu başqa bir inventara yönəldir. Ancaq həmin vəsaitə faktiki olaraq o inventar alınır və bütün prosedurlara, qiymət normalarına riayət olunur. Bununla mənimsəmənin bir fərqi olmalıdır. Bir var kənarlaşdırdı, məqsəddən yayındırdı, mənimsədi, bir də var bu cür. Bax, burada, hesab edirəm ki, ikinci bənd olaraq o da öz əksini tapsa, yaxşı olar. Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əminə xanım, buyurun.

**Əminə Ağazadə**. Hörmətli xanım sədr, həmkarlarıma qanun layihəsi ətrafında söylədikləri təklif və fikirlərinə görə təşəkkürümü bildirirəm. Hörmətli Vüqar müəllimin təklifi ilə bağlı qeyd etmək istərdim. Təklif olunur ki, publik hüquqi şəxsləri, subyektləri də bu kateqoriyaya aid edək. İndi müzakirə etdiyimiz qanun layihəsinin 308-1-ci maddəsinin qeyd hissəsində bilavasitə bildirilir ki, "Bu maddədə dövlətə məxsus olan hüquqi şəxslər dedikdə bu Məcəllənin 195-2-ci maddəsinin qeyd hissəsindəki anlayış nəzərdə tutulmuşdur". Yəni Cinayət Məcəlləsinin həmin maddəsində qeyd olunur ki, "Dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxslərin və publik hüquqi şəxslərin, yəni artıq bu publik hüquqi şəxslər burada nəzərdə tutulur.

Sadəcə olaraq, bunlar Cinayət Məcəlləsinin 195-2-ci maddəsində sadalanır. Amma İnzibati Xətalar Məcəlləsində bu anlayışlar olmadığına görə Məcəllənin 410-cu maddəsinə konkret olaraq “publik hüquqi şəxs” anlayışı daxil edilmişdir. Yəni bu, artıq qanunvericilikdə öz əksini tapmışdır.

Süni intellektlə bağlı məsələ də, əlbəttə ki, maraqlı təklifdir. Amma bizim indiki qanun layihəsinin müzakirəsi, predmeti cəza siyasətidir. Ona görə biz sırf bunu müzakirə edirik. Hörmətli Aydın müəllimin səsləndirdiyi fikirlərlə bağlı qeyd etmək istərdim ki, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində qeyd olunub ki, məqsədli büdcə fondları, büdcədənkənar dövlət fondları, onların arasında olan fərqlər bilavasitə göstərilmişdir. Bu qədər, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəli, səsə qoyacağıq. Sadəcə, Vüqar müəllim, Siz həmişə birinci və ikinci oxunuşların fərqini ifadə edirsiniz. Bilmirəm, bu dəfə niyə bu qədər təkliflər verdiniz? Mən əvvəldən dedim axı, bu, birinci oxunuşdur. Bütün təkliflər verildi, ikinci oxunuşda nə edəcəyik?

Hörmətli həmkarlar, səsə qoyuruq, buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz 8-ci məsələdir. Bu, Cinayət Məcəlləsində və digər 3 qanunvericilik aktında dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Süni intellekt idarəçiliyinin ən mühüm komponenti ondan etik dəyərlər çərçivəsində məsuliyyətlə istifadənin təmin edilməsi və hüquqi tənzimlənməsidir. Məhz bu gün müzakirə etdiyimiz məsələ ilə bağlı Avropa İttifaqı tərəfindən 2025-ci ildə Süni İntellekt Aktı qəbul edilib. Həmin aktın 50-ci maddəsində süni intellektdən məsuliyyətli istifadənin dəqiq normaları müəyyən edilmişdir.

Ölkəmizdə də süni intellekt sahəsində 2025-ci ildə Milli Strategiya qəbul edilib. Bu qanun layihəsi də beynəlxalq təcrübəni əsas tutaraq, eyni zamanda, bizim milli süni intellekt strategiyasının 8.1.3-cü bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

Bildiyiniz kimi, ölkəmizdə süni intellekt məhsullarından istifadə geniş vüsət alıb. Bu gün də biz süni intellektdən etik dəyərlər çərçivəsində, məsuliyyətlə istifadəni təmin etmək üçün, vətəndaşlarımızın konstitusion hüquq və azadlıqlarını qorumaq üçün aydın qaydalar və normalarla bağlı müvafiq normativ hüquqi baza yaradırıq. Bu məqsədlə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni iki maddənin əlavə edilməsi təklif edilir. Belə ki, şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə, süni intellekt texnologiyaları ilə hazırlanan, reallığı əks etdirməyən materialları hazırlayan və ya yayan şəxsləri 3 min manatdan 7 min manatadək cərimə, 360 saatdan 480 saatadək ictimai işlər və ya 3 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Bu əməllər qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə, yaxud iki və daha çox şəxsə qarşı törədildikdə, o cümlədən şəxsin şərəf və ləyaqətini ləkələmək məqsədi ilə törədildikdə və ya zərərçəkmiş şəxsin xidməti vəzifəsini, ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onu özü və ya yaxın qohumlarına qarşı törədilərsə, cəzası 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə olacaq. Eyni texnologiyalarla pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması və yayılması da 3 ildən 7 ilədək azadlıqdan məhrumetmə cəzası ilə nəticələnəcək.

Paralel olaraq, Cinayət-Prosessual Məcəlləsinin 37.3-cü maddəsinə təklif edilən dəyişikliklə məhz 148-2.1-ci maddəsi üzrə zərərçəkmiş şəxsin şikayəti olmadan belə, xüsusi hallarda prokurorluq orqanları tərəfindən müstəqil formada cinayət təqibi başlana bilər. Bununla yanaşı, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" qanunlara mühüm dəyişikliklər təklif edilir. Bu barədə yəqin ki, İnsan hüquqları komitəsinin sədri Zahid müəllim geniş məlumat verəcək.

Hörmətli xanım sədr, biz Hüquq siyasəti və dövlət quruculuğu, eyni zamanda, İnsan hüquqları komitələrinin birgə iclasında həm deputatlar, həm də dəvət olunmuş şəxslərlə kifayət qədər səmərəli və geniş, 3 saatdan çox müzakirələr apardıq. Qanun layihəsi dəstəklənmişdir. Həmkarlarıma bir daha təşəkkür edirəm və bu gün də plenar iclasda qanun layihəsinə birinci oxunuşda dəstək vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılmışdır və komitənin rəyini bildirmək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Kamal müəllim əsas məqamlar üzərində dayandı, birgə komitə iclasından bəhs etdi. Ona görə əsas məqamları  4-5 dəqiqə çərçivəsində sizə çatdırmağa çalışacağam.

Möhtərəm cənab Prezident İlham Əliyev müxtəlif platformalarda yeni mərhələdə Azərbaycanın inkişaf prioritetlərini belə müəyyənləşdirib. Süni intellekt – biz hər zaman aparıcı xətlə birgə gedirik. Nəticədə ölkəmizdə rəqəmsal inkişaf konsepsiyası təsdiq olunub, süni intellekt strategiyası hazırlanıb. “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunan müşavirədə dövlət başçısının süni intellektin tətbiqinin geniş vüsət almasını vurğulaması, Rəqəmsal İnkişaf Şurasını yaratması və strateji layihələrə bilavasitə hörmətli Mehriban xanım Əliyevanın rəhbərlik etməsi ölkəmizin nəinki regionda, o cümlədən dünyadakı aparıcı trendlərə sürətlə çatmağa çalışdığını göstərən faktlardır.

Dünyada aparıcı şirkətlərin 90 faizi süni intellektdən istifadə edir. Amma 67 faizində proses hələ pilot mərhələsindədir. İndi dövlətimiz milli data arxitekturasını formalaşdırır, alqoritmik müstəqilliyini təmin etməyə və rəqəmsal asılılığa düşməməyə çalışır. Süni zəka sahəsində qabaqcıl dövlətlər hüquqi qanunvericilik bazasını formalaşdırmaqda davam edirlər. Süni intellektin definisiyası, onun qanunsuz və cinayətkar məqsədlərlə istifadəsinə qarşı məsuliyyət tədbirləri, o cümlədən nişanlanma və etiketlənmə tədbirləri geniş tətbiq olunur.

Milli Məclisin müzakirəsinə çıxarılan bu layihələr süni intellekt texnologiyaları və xüsusi proqram təlimatları vasitəsi ilə foto, video, audio materialların hazırlanması və ya yayılması ilə bağlı ümumi prinsipləri müəyyən edir. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Media haqqında” qanunlara əlavə və dəyişikliklər

təklif olunur. Hər iki qanunda şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsi ilə hazırlanmış, reallığı əks etdirməyən, yaxud qeyri-əxlaqi foto, video və audio materialların yayılmasına məhdudiyyətlər təklif olunur.

Layihənin əsas məqsədi vətəndaşların hüquq və azadlıqların qorunmasına xidmət edir. Hazırda dünyada deepfake texnologiyaları vasitəsi ilə insanların üzləri, səsləri və davranışları sürətlə köçürülür, klonlaşdırılır, nəticədə tamamilə saxta video və audio materialların yayılması kütləvi hal alır. 1919–1925-ci illərdə internet və digər informasiya ehtiyatlarında deepfake videoların və kontentlərin sayı 900 faiz artıb. Deepfake hücumlarının əsas qurbanları sosial media aktivləri, xüsusilə jurnalistlər, ictimai fəallar və tanınmış şəxslərdir. Materialların təxminən 96-98 faizi şəxsin razılığı olmadan hazırlanmışdır və qeyri-əxlaqi məzmundan ibarətdir, bunun 79 faizində qurban qadınlardır. Siyasətçilər və dövlət adamları ilə bağlı deepfake məzmunlarda yayılan materialların təxminən 76 faizi həmin şəxsi nüfuz itksinə məruz qoymaq və antitəbliğat aparmaq məqsədi daşıyır. Bu kontentin yayılması daha çox video və sosial media platformalarında müşahidə olunur. “YouTube” platformasında təxminən 30 faiz, “Instagram”da 26 faiz, “Facebook”da 19 faiz və “TikTok” platformasında 18 faiz belə videolar yayılır.

Sorğular göstərir ki, istifadəçilərin təxminən 49 faizi deepfake videolarla məhz “YouTube” platformasında qarşılaşırlar. Xüsusilə qlobal müharibələr fonunda son 20 gündə ölkəmizə qarşı koordinasiyalı informasiya kampaniyalarının da biz süni zəka texnologiyaları ilə aparıldığını görməkdəyik. Bu proses cəmi 25 dəqiqəyə, heç bir məsrəf olmadan, xərc çəkilmədən hazırlana bilir. Azərbaycan dövlətinin Vətən

müharibəsində Qələbəsini həzm edə bilməyən qüvvələr, hərbi meydanda məğlub olan və ölkəmizin güclənməsinə qarşı olan dairələr qardaş Türkiyə lideri Ərdoğanın coğrafi və mavi vətənlə bir tutduğu kiber vətəndə fake və deepfake texnologiyaları vasitəsi ilə ölkəmizə qarşı hibrid savaş aparırlar. Real olmayan audio, video və fotoların böyük əksəriyyəti xarici ölkələrdə hazırlanır və yayılır. “Made in Azerbaijan” , “Azerfreedom”, “Azad söz” və onlarla xain kanallar antimilli, şər texnologiyalarıdır.

Azərbaycan məhkəmə orqanları haqlı olaraq həmin diversiya platformaları haqqında müvafiq hökmlər çıxarır. Lakin terror, transmilli xarakter daşıdığı kimi, süni intellekt əsaslı belə beynəlxalq cinayətlərin də qarşısının alınması üçün dövlətlərarası əməkdaşlıq zəruridir.

Azərbaycan dövləti insanlara, dövlətlərə və cəmiyyətlərə qarşı çevrilən süni zəka məhsullarına sədd çəkmək üçün müvafiq beynəlxalq konvensiyaların hazırlanmasını təklif edə bilər. Bir daha qeyd edirik ki, bununla bağlı, əslində, ayrıca məcəllənin qəbul edilməsi zəruridir. Kamal müəllimin də qeyd etdiyi kimi, Avropa Birliyində model qanunlar var.

Layihədə göstərilən “real olmayan” ifadəsinin fake və deepfake termininin tam mənasını özündə ehtiva etdiyinə də diqqət göstərməliyik. Belə beynəlxalq terminlərin hüquq qanunvericilik sistemimizə gətirilməsi dilimizin təmizliyinə və suverenliyinə xələl gətirmir. Bir daha söyləyirik ki, layihə bu şəxslərə, onların yaradıcılıq azadlıqlarına deyil, yalnız qanunsuz fəaliyyətlərinə qarşıdır. Yaradıcılıq azadlığı süni intellektlə tanınmır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bizim bir məsələmiz qalır. Ancaq fasilə zamanıdır. Əgər etiraz etmirsinizsə, fasiləsiz edək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Mən komitə iclasında da müəyyən narahatlıqlarımı ifadə etmişdim. Bir çox məsələləri yenidən işləmişəm və onları nəzərinizə çatdırmaq istəyirəm.

Süni intellekt texnologiyalarının sürətlə inkişafı ilə birlikdə yeni bir təhlükə meydana çıxdı – saxta video, foto və audio materiallar. Təbii ki, dövlət və qanunvericilik bu risklərə reaksiya verməlidir. Lakin belə həssas məsələləri tənzimləyərkən çox incə bir balans olmalıdır. Bir tərəfdən, insanların hüquqları müdafiə olunmalıdır, digər tərəfdən isə, texnologiyanın inkişafı ilə media fəaliyyəti və yaradıcılıq azadlığı məhdudlaşdırılmamalıdır.

Hesab edirəm ki, təqdim olunan mətnin hazırkı məntiqində müəyyən risklər var. Əgər norma daha dəqiq ifadə olunmasa, süni intellektdən istifadə edən jurnalistlər, media qurumları, bloggerlər və sosial şəbəkə istifadəçiləri də cinayət məsuliyyəti ilə üz-üzə qala bilər. Bu səbəbdən, qanun həm şəxsi hüquqları qoruyan, həm də media və yaradıcılıq azadlığını boğmayan bir formada hazırlanmalıdır.

Əvvəla, qanunda “zərərli məqsəd” anlayışı açıq şəkildə göstərilməyib. Sadəcə süni intellekt vasitəsi ilə hazırlanmış materialın yayılması avtomatik olaraq cinayət məsuliyyəti yaratmamalıdır. Məsuliyyət yalnız o halda tətbiq edilməlidir ki, həmin material  aldatma, böhtan, şəxsi həyatın pozulması, şantaj, reputasiyanın qəsdən zədələnməsi və ictimai  çaşqınlıq yaratmaq məqsədi ilə hazırlanıb yayılmış olsun. Əks halda satira, parodiya, analitik videolar, media vizuallaşdırmaları və tədris materialları da bu qanunun təsiri altına düşə bilər ki, bu da düzgün yanaşma sayılmaz.

İkinci mühüm məsələ süni intellektlə hazırlanmış kontentin etiketləşdirilməsi ilə bağlıdır. Bir çox ölkələrdə bu sahədə qadağa deyil, şəffaflıq prinsipi tətbiq olunur. Yəni süni intellekt vasitəsi ilə hazırlanmış və

real hadisəni əks etdirməyən material yayıldıqda onun üzərində və təsvirində “süni intellektlə yaradılmışdır” qeydinin göstərilməsi kifayət edir. Bu yanaşma həm auditoriyanı məlumatlandırır, həm də kontent istehsalını və yaradıcılığı məhdudlaşdırmır.

Digər tərəfdən, qanunda satira və incəsənət üçün hüquqi istisna mexanizmi də nəzərdə tutulmalıdır. Satirik və parodiya xarakterli materiallar, kino, animasiya və digər yaradıcı layihələr demokratik cəmiyyətlərdə fikir azadlığının vacib elementidir. Əgər bu istisna qanunda aydın şəkildə göstərilməzsə, sabah komediya videoları, siyasi satira, hətta internet memləri belə hüquqi mübahisə predmetinə çevrilə bilər.

Eyni zamanda, media qurumlarının fəaliyyəti üçün də hüquqi aydınlıq yaradılmalıdır. Redaksiyaların və jurnalistlərin fəaliyyətində süni intellektdən istifadə edilərək hazırlanmış vizual materiallar informativ və izahlı xarakter daşıyırsa və manipulyasiya məqsədi güdmürsə, bu fəaliyyət məsuliyyət doğurmamalıdır. Bu televiziya, xəbər portalları və sənədli film yaradıcılığında xüsusi ilə vacibdir.

Qanun layihəsində diqqət yetirilməli digər bir məsələ isə razılıq alınmadan istifadə hallarıdır. Hesab edirəm ki, cinayət məsuliyyəti yalnız konkret hallarda tətbiq edilməlidir. Məsələn, material şəxsin reputasiyasına zərər vurursa, təhqiredici və ya pornoqrafik xarakter daşıyırsa, yaxud siyasi manipulyasiya və dələduzluq məqsədi güdürsə. Amma xəbər süjetləri, illüstrativ materiallar, analitik videolar, tədris kontenti və satirik materiallar bu kateqoriyaya daxil edilməməlidir.

Sosial şəbəkə istifadəçiləri ilə bağlı balanslı mexanizm tətbiq etmək mümkündür. Birbaşa cinayət məsuliyyəti əvəzinə ikimərhələli yanaşma tətbiq oluna bilər. Əvvəlcə platforma və istifadəçiyə materialın silinməsi barədə bildiriş verilsin və bu tələbin yerinə yetirilmədiyi hallarda məsuliyyət

nəzərdə tutulsun. Bu model Avropanın bir çox ölkələrində tətbiq olunur və daha balanslı hesab edilir.

Nəhayət, qanunda prinsip olaraq bir məsələ də aydın göstərilməlidir. Süni intellekt texnologiyalarının media, elm, təhsil və yaradıcılıq sahələrində istifadəsi təşviq olunmur və yalnız hüquq pozuntusu məqsədi daşıyan hallarda məhdudlaşdırılır.

Hörmətli həmkarlar, biz burada texnologiyanın özünə qarşı mübarizə aparmırıq, ondan sui-istifadənin qarşısını almağa çalışırıq. Ona görə də qəbul etdiyimiz qanun həm insanların hüquqlarını qorumalı, həm də innovasiyanın və texnoloji inkişafın qarşısını almamalıdır. Başqa sözlə desək, süni intellekt problem deyil, problemi yaradan onun sui-istifadəçiləridir və qanunda məsuliyyət də məhz bu sui-istifadəni hədəfləməlidir. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Mən, sadəcə, komitə sədri kimi bir təkliflə çıxış etmək istəyirəm. Çünki əminəm ki, bu cür müzakirələr bizi istədiyimiz hədəfə çatdırmır. Yəni həqiqətən də, Razi müəllimin dediyi kimi və qanunda da yazıldığı kimi, əslində, məhz qanunsuz süni intellekt materialları ilə mübarizədən söhbət gedir.

Ona görə də Sahibə xanım, bizim komitə iclasımız 3 saat davam etmişdi. Həmin iclasda məhz bu işi tətbiq edənlər – Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Media Şurasının nümayəndələri iştirak etmişdi. Mən təklif edərdim ki, daha bir iclas keçirək. Məncə, daha maraqlı və effektiv olar ki, biz komitə iclasında bütün çıxış edənləri və maraqlı tərəfləri dəvət edək. Əminəm ki, bu gün burada hörmətli həmkarlarımı da maraqlandıran bütün suallara orada cavab tapılacaq. Bu,

daha faydalı olar, həm biz təklifləri yerində dəyərləndirə bilərik, həm də lazımlı olanları nəzərə ala bilərik. Məncə, bu mövzu yenidir, spesifikdir və hər kəsin bildiyi sahə deyil. Bu da təbiidir, çünki elə bizim üçün də yenidir. Ona görə belə bir təkliflə çıxış etmək istədim ki, geniş komitə iclası olsun və hər kəsi dəvət edək.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Bəli, tamamilə razıyam. Təklif var ki, səsə qoyaq. Burada yazılan bizim hörmətli qonaqlarımız artıq sizin komitə iclasınıza dəvətlidirlər.

Hörmətli həmkarlar, mən bu məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə keçirik. Bu, 9-cu məsələdir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Yenə də bizə məlumatı Kamal Cəfərov verəcək. Buyurun.

**Kamal Cəfərov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. İnzibati Xətalar Məcəlləsinə 4 mühüm istiqamət üzrə dəyişikliklər təklif edilir. Birinci istiqamət dövlət maliyyəsinə nəzarət və elektronlaşdırma ilə bağlıdır. Məndən əvvəl Əminə xanım bununla bağlı kifayət qədər geniş məlumat verdi və sualları cavablandırdı.

Dövlət büdcəsindən və ya büdcədənkənar fondlardan maliyyələşən təşkilatların əhatə dairəsi genişləndirilir. Ən mühüm yenilik odur ki, maliyyə qaydalarının pozulmasına görə cərimələr əvvəlki kimi sabit məbləğlərlə deyil, bilavasitə inzibati xətanın obyekti olmuş vəsaitin 100 faizi məbləği həddində müəyyən ediləcək.

Birinci səbəb ondan ibarətdir ki, əvvəlki təcrübədə sabit məbləğli cərimələr, yəni məsələn, 400 manat, 800 manat, böyük məbləğli maliyyə pozuntuları üçün adekvat deyildi və çəkindirici xarakter daşımırdı. İkincisi, biz artıq qanunvericilikdə bu təcrübədən xüsusi ilə son zamanlar çox istifadə etmişik.

İkinci istiqamət uşaq hüquqlarının və təhlükəsizliyinin təminatı ilə bağlıdır. Bu məsələ ilə bağlı da cari ilin 3 mart tarixində biz “Uşaq hüquqları haqqında” Qanunu üçüncü oxunuşda qəbul etdik. Məhz həmin qanunun tələblərindən irəli gələrək İnzibati Xətalar Məcəlləsinə 3 yeni maddə əlavə edilməsi təklif olunur.

Təhsil, tibb, mədəniyyət, sosial xidmət, penitensiar müəssisələrin işçiləri və ya valideynlər tərəfindən uşaqlarda zorakılıq əlamətləri aşkar edildikdə və bu barədə hüquq mühafizə orqanlarına məlumat verilməməsi halında həm fiziki şəxslər, həm də vəzifəli şəxslər üçün cərimələr müəyyən edilir. Müvafiq müəssisələrdə uşaqlar arasında davamlı təzyiqin və aqressiv davranışın, yəni bullinqin qarşısının alınmamasına görə də cərimələr müəyyən edilir. Valideynlər və müvafiq işçilər tərəfindən tərbiyə məqsədi ilə uşağa qarşı cismani cəzanın, yəni fiziki və psixoloji zorakılığın tətbiq edilməsinə görə də 200 manat məbləğində cərimə müəyyən edilir. Əlbəttə, bu əməldə cinayət tərkibi olarsa, bu məsələyə Cinayət Məcəlləsi çərçivəsində də baxılacaq.

Üçüncü istiqamət süni intellektlə bağlıdır. Biz bundan əvvəl geniş təqdimat etdik. Zahid müəllim də məlumat verdi. Bu hissə də inzibati məsuliyyətlə bağlıdır. Süni intellekt vasitəsi ilə hazırlanan və kütləvi nümayiş etdirilən materialların nişanlanmadan hazırlanmasına, paylaşılmasına görə cərimə müəyyən edilir.

Dördüncü istiqamət isə müxtəlif istiqamətlər üzrə digər zəruri dəyişikliklərdir. Bayaq qeyd etdiyim kimi, "Uşaq hüquqları haqqında" qəbul etdiyimiz Qanunun tələblərindən irəli gələrək, dilənçiliklə məşğulolma əməli "avaraçılıq" anlayışından ayrılır və uşaqların dilənçiliyə cəlb edilməsinə görə məsuliyyət müəyyən edilir.

Digər bir zəruri dəyişiklik isə xüsusi icra məmurları ilə bağlı qəbul etdiyimiz qanunla əlaqədardır. Yeni qanunvericiliyə əsasən and içmədən xüsusi icra məmuru fəaliyyəti göstərmək, xüsusi geyim formasını qanunsuz daşımaq kimi əməllərə görə yeni məsuliyyət tədbirləri müəyyənləşdirilir.

Sonuncu zəruri dəyişiklik isə yol hərəkəti qaydaları ilə bağlıdır ki, o barədə həmkarım Nurlan Həsənov geniş məlumat verdi. Ondan irəli gələrək yeni inzibati xəta ilə bağlı təkmilləşdirilmələr təklif edilir.

Qeyd edilənləri nəzərə alaraq həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim.

Yazılanlar var. Nigar Arpadarai. Buyurun.

**Nigar Arpadarai.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu qanun layihəsinin 525.1-ci maddəsi ilə bağlı – sırf uşaqlara qarşı cismani cəzanın tətbiqi maddəsi ilə bağlı fikrimi bölüşmək istərdim.

Kamal müəllimin qeyd etdiyi kimi, valideynlər tərəfindən tərbiyə məqsədi ilə uşaqlara qarşı fiziki və psixoloji zorakılığın törədilməsinə görə cərimə nəzərdə tutulub. Gözlənilməz səslənsə də, mən qanunun bu

maddəsinin əleyhinəyəm. Hörmətli jurnalistlərdən də xahiş edirəm ki, mövqeyim dəqiq və kontekstdən çıxarılmadan çatdırılsın, sözlərim təhrif olunmasın. Hesab edirəm ki, bu çox təhlükəli bir qanundur.

Hörmətli həmkarlar, güclü ailə bizim milli kimliyimizin əsasını təşkil edir. Məsələ ondadır ki, faktiki olaraq bu maddə “pandora qutusu”nu açır və ailə bütövlüyünü, valideynlərlə uşaqlar arasındakı münasibətlərin zədələnməsinin başlanğıcına çevrilə bilər. Bizim bu sahədə onsuz da problemlərimiz var və onları həll etmək lazımdır, daha da dərinləşdirmək yox. Bəli, deyə bilərsiniz ki, 1980-ci illərdən etibarən Avropada və bir sıra Qərb ölkələrində bu qanunlar qəbul olunur və bir çox ölkələrdə tətbiq edilir. Bu, doğrudur. Amma həmin ölkələrin siyahısına baxsanız, onların əksəriyyətində demoqrafik vəziyyətin ağır olduğunu görərsiniz. Həmin ölkələrin ailələrində olan neqativ halların yaranmasında belə qanunların kifayət qədər böyük rolu var. Bu proses qonşulara, müəllimlərə, uzaq qohumlara valideynlərin uşaqlara fiziki və psixoloji təzyiq göstərdiyi barədə polisə, sosial xidmətlərə müraciət etmək imkanı verən qanunlarla başlayıb. Heç kim mənə sübut edə bilməz ki, bunlar real fayda gətirir.

Məsələn, bu gün Kaliforniyada məktəbdə valideynin xəbəri olmadan uşağa antidepresantlar təyin oluna bilər. Hətta ona gender dispariyası diaqnozu qoyularaq cinsiyyət dəyişdirmə proseduru başlanıla bilər. Əgər siz valideyn olaraq buna etiraz etsəniz hətta həbs riski ilə üzləşə bilərsiniz. Avropanın bəzi ölkələrində isə sosial xidmətlər hesab etsə ki, siz uşağınıza hansısa standartlara uyğun olmayan dəyərlərlə tərbiyə verirsiniz, məsələn, oralarda çox məşhur olan cinsi azlıqlara münasibətdə tərbiyəniz tolerantlıq prinsiplərinə uyğun deyil, bu halda siz valideynlik hüququnuzu itirə bilərsiniz. Bunları qorxutmaq üçün demirəm, reallıqdır. Mən uşaqlarını qorumaq üçün bəzi ştatlardan və bir çox ölkələrdən köçən ailələri tanıyıram.

Qeyd etdiyim nümunələrə və proseslərə vaxtı ilə o ölkələrdə qəbul edilən bu kimi qanunlar yol açıb. Dünyada böyük ideoloji mübarizə gedir və ənənəvi ailə institutu bu mübarizənin hədəflərindən biridir. Bu cür qanunlar isə bir növ aldadıcı mexanizm rolunu daşıyır. Uşaqların hüquqlarının qorunması illüziyasını yaratmaq üçün təqdim olunur. Lakin əslində, sağlam ailələrin uşaqlara verdiyi qorumanı zəiflətməyə, dağıtmağa gətirib çıxarır.

Təbii ki, mən uşaqlara qarşı fiziki cəzanın qəti əleyhinəyəm. Biz tərbiyə məqsədi ilə fiziki cəzalara qarşı mübarizə aparmalıyıq. Amma bunu belə problemli qanunu qəbul etməklə deyil, insanların maarifləndirilməsi yolu ilə etməliyik.

Digər bir məsələ. Burada psixoloji cəza anlayışı da var. Bunu kim müəyyən edəcək? Dövlət minlərcə psixoloq işə götürməlidir ki, valideynlərin uşaqlara psixoloji təzyiq göstərib-göstərmədiyini yoxlasın? Tərbiyənin harada bitdiyini və psixoloji təzyiqin nə vaxt başlandığını necə müəyyən etmək olar? Bu, praktikada icrası çox çətin olan və müxtəlif sui-istifadələrə yol açan bir yanaşmadır. Digər tərəfdən, fiziki zorakılığa görə cinayət məsuliyyəti artıq mövcuddur və heç kim valideynləri bu məsuliyyətdən azad etmir.

Mənim qənaətimə görə bu qanun Azərbaycan ailəsinin möhkəmləndirilməsi üzrə strategiyamıza ziddir. Uşaqları döymək olmaz – bu, aydındır. Lakin əgər belə bir hal baş veribsə, bunlar üçün başqa yollar axtarmaq lazımdır. Ancaq beynəlxalq mobil qrupların təşkil etdiyi mexanizmlərə düşünmədən qoşulmaq düzgün deyil. Belə yanaşmanın tətbiq olunduğu ölkələrdə olan nəticələr göz qabağındadır. Qərb ölkələrində ailə və uşaq siyasəti sahəsində vəziyyət yaxşılaşmır, əksinə mürəkkəbləşir. Əgər belədirsə, niyə biz onların yolu ilə getməliyik?

Hörmətli həmkarlar, mən bunu həm deputat, həm də ana kimi deyirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Sahibə xanım, mən qısa bir qeyd demək istəyirəm. Biz Nigar xanımın səsləndirdiyi narahatlığı başa düşürük. Çox güman ki, müxtəlif sahələr üzrə oxşarlıq olacaq.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər müxtəlif ana qanunlardan irəli gələn dəyişikliklərdir. Yəni biz yeni normativ davranış yaratmırıq. Bu məsələlər artıq "Uşaq hüquqları haqqında" Qanunda müzakirə olunubdur, geniş müzakirə etmişik. Misal üçün icra məmurları ilə bağlı ayrı qanun qəbul etmişik, müzakirə etmişik, yol hərəkəti, süni intellekt və sair. Burada məhz o qanunlardan irəli gələn cəza tədbirlərindən söhbət gedir. Elə etsək, gərək təzədən bütün qəbul etdiyimiz o qanunlara uyğun müzakirə formatları keçirək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, qeydinizə görə.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi müxtəlif aspektləri əhatələyir. Hörmətli Kamal müəllim kifayət qədər ətraflı məlumat verdi. Mütərəqqi təşəbbüsdür.

Hüquqi münasibətlərin inkişafı fonunda icmal-informasiya sistemi barədə müddəalar, süni intellektlə yaradılan materialların nişanlanma olmadan yayımlanmasına, dilənçiliklə məşğul olmağa, habelə "Xüsusi icra məmurları haqqında" Qanunun pozulmasına görə məsuliyyətin müəyyən edilməsi günün tələbi hesab edilə bilər.

Cari dəyişiklik layihəsinin 3 maddəsi isə “Uşaq hüquqları haqqında” Qanunun tələblərinə müvafiq olaraq verilən reaksiya kimi təklif edilir. Təbii ki, bu, kifayət qədər çevik reaksiyadır və özlüyündə alqışlanmalıdır. Amma etiraf edək ki, bu hissədə müddəaların bəziləri ənənə və reallıqları arxa plana keçirmək təhdidi yaradır. Xüsusən 525-1 maddəsində nəzərdə tutulan konsepsiya cəmiyyətimizdə min illər boyu formalaşan valideyn–uşaq münasibətlərinin, bizə xas ailə dəyərlərinin təməlləri üçün zərbəyə çevrilə bilər.

Psixi, əxlaqi və davranış pozuntusu olan valideynlər istisna olmaqla heç bir valideyn övladına zərər vermək istəməz. Uşaq valideyninə olduğu qədər heç kim üçün əziz deyil. Gəlin, özümüzə sual verək – biz kimi kimdən qorumağa çalışırıq, uşağı anasındanmı?

Bu, bizə çox yad olan standartdır, ailə dəyərlərini itirmiş, uşaqları valideynlərindən qoruyan toplumların formalaşdırdığı süni doqmadır. Üstəlik, unutmayaq ki, epşteynlər də məhz uşaqların qorunduğu iddia edilən o toplumlarda yetişib. Ona görə də əsrlərdir cəmiyyətimizdə oturuşan, uşağın ən sağlam, ən sınaqdan çıxmış effektiv tərbiyəsini təmin edən sistemimizi qırmağa ehtiyac yoxdur. Ailədə, evdə olan evdə qalmalıdır, bunu bacaran uşaq, sabah dövlətində olanı da elə dövlətin daxilində saxlamağı bacaracaq.

Fikrimcə, bu maddə faktiki olaraq uşaqları valideynin üstünə qaldırır. Düşünürəm ki, bu cür təşviq, belə hallara rəvac vermək haradasa faydalı deyil. Təbii ki, uşağa cismani cəza vermək, yaxud zorakılıq yolverilməzdir. Amma bu, oturuşmuş dəyərlərin zədələnməsi hesabına baş verməməlidir. Bəli, Kamal müəllim çox haqlıdır – digər normalarda bu, artıq var. Amma bunu xüsusi olaraq uşaq–valideyn sematikasına gətirmək, hesab edirəm ki, o qədər də faydalı olmayacaq.

Qeyd edilən amili çıxmaq şərti ilə layihəni dəstəkləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə mən qeyd edim ki, qanun layihələrinin Milli Məclisin müvafiq komitələri, aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti ilə birgə müzakirəsi qanun yaradıcılığı prosesində çox vacib məsələdir. Bu, imkan verir ki, qanunlar mövcud reallığa uyğun olsun və onun çevik icra mexanizmi formalaşsın. Hörmətli xanım sədr, yaratdığınız bu şəraitə görə Sizə təşəkkür edirəm. Həmçinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli müəllimə də məni komitə iclasına dəvət etdiyi üçün minnətdaram.

Çox ətraflı müzakirələr aparıldı. Kamal müəllim də bunu qeyd etdi ki, təqdim olunan qanun layihəsi bir çox mühüm məsələləri əhatə edir. Nəzərdə tutulan əlavə və dəyişikliklər uşaqların hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, bu yaxınlarda "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsi qəbul edildi. Həmin qanuna əsasən uşaqlara qarşı zorakılığın bütün formaları qadağan edilir və belə hallar qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Fikrimcə, İnzibati Xətalar Məcəlləsinə edilən əlavə və dəyişikliklər uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətinə uyğun olaraq hazırlanmışdır. Hesab edirik ki, uşaqlara qarşı zorakılıq hallarının vaxtında aşkarlanması və qarşısının alınması uşaq hüquqlarının müdafiəsi sistemində əsas məsələlərdən biridir. Belə halların aidiyyəti qurumlara vaxtında bildirilməsi zorakılıq hallarının erkən mərhələdə müəyyən edilməsinə və müdaxilə mexanizmlərinin işə düşməsinə imkan yaradır.

Son illərdə bir neçə təhsil müəssisələrində uşaqlar arasında aqressiv davranış və psixoloji təzyiq halları sosial problem kimi daha çox diqqət mərkəzinə çevrilmişdir. Bu kimi halların qarşısının alınması uşaqların psixoloji sağlamlığının qorunması, təhlükəsiz təhsil və sosial mühitin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Uşaqların dilənçiliyə və küçə fəaliyyətlərinə cəlb olunması onların sosial-iqtisadi istismarına səbəb ola biləcək hallardandır. Onların qarşısının alınmasına yönəlmiş hüquqi mexanizmlər uşaqların sosial müdafiəsini daha da gücləndirəcəkdir.

Layihədə uşağa qarşı cismani cəzanın tətbiqinə, yəni tərbiyə etmək məqsədi ilə və ya intizam tədbiri kimi uşağa qarşı fiziki və ya psixoloji zorakılığın törədilməsinə görə məsuliyyət nəzərdə tutulur. Valideyn, təhsil və sosial müəssisələrdə işləyən şəxslər uşaqların təlim-tərbiyəsi üzrə öhdəliyi olan insanlardır.

Əfsuslar olsun ki, son zamanlar biz mətbuatda, sosial mediada uşaqlara qarşı müxtəlif zorakılıqların tətbiq edilməsi hallarına da rast gəlirik. Bu, bütün hallarda qanuna və insanlığa zidd əməl sayılır, hüquqi və mənəvi məsuliyyət yaradır. Biz hər zaman deyirik ki, qanunlarımız yalnız hüquqları bəyan etməli deyil, həm də bu onların reallaşdırılması mexanizmlərini də tənzimləməlidir. Bu baxımdan İnzibati Xətalar Məcəlləsinə edilən bu əlavə və dəyişikliklər olduqca vacibdir.

Bütövlükdə, təqdim olunan qanun layihəsinə münasibətim müsbətdir və deputat həmkarlarımı da bu sənədi dəstəkləməyə çağırıram.

Hörmətli xanım sədr, icazə versəniz, bir kəlmə ilə hörmətli Nigar xanıma da cavab vermək istərdim. Mən, əlbəttə ki, bir ana və bir millət vəkili kimi onun narahatlığını başa düşürəm və bilirəm, o bu fikri nəyə görə söyləyir. Amma yəqin, uzun müddət belə məsələlərlə məşğul olan bir insan kimi mənimlə razılaşarsınız ki, hər dəfə bu formatda qanunlar qəbul olunanda

fərqli fikirlər söylənilir. Biz zorakılıqla bağlı  qanun qəbul edəndə elə çıxışlar olurdu ki, nədir bəyəm, mən öz arvadıma əl vura bilmərəm? Mən öz uşağımı döyə bilmərəm, ona ağır söz deyə bilmərəm? Belə düşüncələrlə yanaşan insanlar az deyil, bunu bilirsiniz. Mən düşünürəm ki, Azərbaycan inkişaf edən demokratik bir ölkədir. Burada söhbət ondan getmir ki, biz hansısa bir ölkənin nümunəvi bir qanununu götürürük və o istiqamətdə qanunlarımıza dəyişiklik edirik. Biz, əslində, bu qanunda, sadəcə, uşaqların hüquqlarını müdafiə edirik. Bu baxımdan bu qanun çox vacibdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Sizin komitə sədri kimi fikirləriniz, təbii ki, çox dəyərlidir. Eyni zamanda, özünüz də qeyd etdiyiniz kimi, Siz neçə illər bu məsələlərlə məşğul olmuş insansınız. Biz bunu yaxşı bilirik, Siz də artıq dediniz. Mən, sadəcə, onu soruşmaq istəyirdim ki, axı, Kamal müəllim düz deyir, biz bu qanunu burada qəbul edərkən çoxsaylı müzakirələrimiz oldu, sizin komitənizdə dinləmələr də keçirildi. Nigar xanım, Siz həmin komitələrdə yox idiniz? Sadəcə, öz fikirlərinizi bildirə bilərdiniz. Mən düşünürəm ki, o vaxtı da, indi də hərənin öz fikri var.

Bu məsələ ilə bağlı sonuncu çıxış Günay Ağamalınındır. Buyurun, Günay xanım.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Bu gün müzakirə etdiyimiz qanun layihəsində uşaqlara qarşı cismani cəzanın tətbiqinə görə məsuliyyətin müəyyən edilməsi cəmiyyətimizin gələcəyi ilə birbaşa bağlı olan son dərəcə həssas və önəmli məsələdir.

Uşaq ailənin, dövlətin və cəmiyyətin ən böyük dəyəridir. Biz sağlam, güclü və məsuliyyətli gələcək naminə uşaqların fiziki və psixoloji təhlükəsizliyini tam təmin etməliyik. Təəssüf ki, hələ də bəzi hallarda

tərbiyə adı altında zorakılığa yol verilir. Zorakılıq heç vaxt tərbiyə vasitəsi ola bilməz.

Maddə 525.1 bu baxımdan hüquqi baza yaradır. Sözügedən hüquqi müddəa göstərir ki, uşağa qarşı istənilən fiziki və psixoloji təzyiq yolverilməzdir. Belə hallara yol verən şəxslər hüquqi məsuliyyət daşıyırlar. Xüsusi ilə diqqətəlayiq məqam ondan ibarətdir ki, bu məsuliyyət yalnız valideynlərə deyil, eyni zamanda, uşaqlarla işləyən bütün qurumlara şamil olunur. Bu isə uşağın olduğu hər mühitin təhlükəsiz olmasını təmin etməyə yönəlmiş kompleks yanaşmadır.

Bu baxımdan həmin maddənin qəbulunu və effektiv tətbiqini, uşaqlarımızın hüquqlarının qorunması, ailə institutunun möhkəmləndirilməsi və sağlam gələcəyin təmin olunması istiqamətində mühüm addım kimi qiymətləndirirəm.

Qanun layihəsinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, birinci oxunuşda münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 5 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bu gün İlaxır çərşənbədir. Bildiyiniz kimi, bir neçə gündən sonra xalqımız Novruz və Ramazan bayramlarını qeyd edəcək.

Milli-mənəvi dəyərlərimiz arasında mühüm yer tutan Novruz bayramı yenilik və bolluq bayramıdır. Ülvi duyğuların daşıyıcısı olan Ramazan isə xeyirxahlığı və həmrəyliyi təcəssüm etdirir.

Təklif edirəm ki, bu gözəl bayramlar münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni-yeni uğurlar arzulayaq. (*Alqışlar.*)

Çox sağ olun. Hörmətli həmkarlar, bayram münasibəti ilə mən də sizin hər birinizi, burada bizim fəaliyyətimizi işıqlandıran media mənsublarını ürəkdən təbrik edirəm, hamınıza can sağlığı, firavanlıq və xoşbəxtlik arzulayıram.

Bununla da iclasımız başa çatdı. Sağ olun.

## *EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ*

***17 mart 2026-cı il***

**Bədəl Bədəlov.** XIII Qlobal Bakı Forumu beynəlxalq siyasət, təhlükəsizlik və qlobal əməkdaşlıq məsələlərinin müzakirə olunduğu mühüm platformalardan biri kimi diqqət çəkir. “Keçid dövründə olan

dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusuna həsr olunmuş forumda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışında beynəlxalq gündəliyə dair fikirlərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Hazırkı şəraitdə təhlükəsizlik və sabitlik məsələləri hər bir dövlət üçün əsas prioritetə çevrilib. Müasir dövrdə dünyada baş verən gərginliklər, yeni münaqişə ocaqlarının yaranması və qlobal risklərin artması təhlükəsizlik məsələsini daha da aktuallaşdırır. Çünki sabitlik olmadan iqtisadi inkişaf, sosial rifah və digər strateji hədəflər barədə danışmaq da mümkün deyil.

Qlobal arenada baş verən dəyişikliklər aydın göstərir ki, uzun illər ərzində inkişaf və iqtisadi tərəqqi naminə çalışan dövlətlər belə yeni təhlükələrlə üz-üzə qalırlar. Bu səbəbdən ölkələrin səylərini birləşdirərək təhlükəsizlik və sabitlik məsələlərinə xüsusi diqqət yetirməsi zəruridir. XIII Qlobal Bakı Forumunun gündəliyinin geniş olması bu çağırışların müxtəlif aspektlərdə müzakirə olunmasına da şərait yaratdı.

Dövlətimizin başçısı çıxışında regional təhlükəsizlik məsələsinə diqqət yetirərək qeyd etdi ki, regional sabitlik hər zaman milli siyasətin əsas prioritetlərindən biri olub. Uzun illər davam edən münaqişə şəraiti bu regionda təhlükəsizlik mühitinin formalaşmasına ciddi maneələr yaratmış, təxminən 30 il ərzində ərazilərimizin işğal altında qalması və milyonlarca insanın doğma torpaqlarından didərgin düşməsi region üçün ağır nəticələr doğurmuşdu. Bu dövrdə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli həll yollarının tapılması istiqamətində müxtəlif səylər göstərilsə də, bir sıra beynəlxalq aktorların selektiv yanaşması münaqişənin uzun müddət həll olunmadan qalmasına səbəb olmuşdu. Bununla belə, beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit olunmuş özünümüdafiə hüququna əsaslanaraq ölkəmizin ərazi bütövlüyünün bərpası mümkün oldu. Bu proses uzun və

mürəkkəb mərhələlərdən keçsə də, nəticədə suverenliyin bərpası Cənubi Qafqaz regionunda yeni siyasi reallıqların formalaşmasına gətirib çıxardı.

Prezident İlham Əliyevin çıxışında diqqət çəkən məqamlardan biri də müharibədən sülhə keçid prosesinin təcrübəsi ilə bağlı olub. Dövlətimizin başçısı vurğuladı ki, biz işğal olunmuş əraziləri güc vasitəsi ilə azad etdik və sülhə siyasi yollarla nail olduq. 2020-ci ildə baş vermiş 44 günlük müharibə nəticəsində ərazilərin işğaldan azad edilməsi regionun siyasi və geosiyasi mənzərəsini dəyişdi. Bu proses yalnız hərbi qələbə ilə məhdudlaşmadı, eyni zamanda, sülh və sabitlik üçün yeni imkanların yaranmasına səbəb oldu.

Beynəlxalq təcrübə göstərir ki, bəzi hallarda sülh danışıqları uzun illər nəticəsiz qalır və münaqişələrin həlli mümkün olmur. Belə vəziyyətlərdə beynəlxalq hüququn təmin etdiyi normalara əsaslanaraq atılan addımlar regionda ədalətin bərpasına və yeni reallıqların formalaşmasına gətirib çıxara bilər. Artıq regionda sülhün real nəticələri müşahidə olunur. Ermənistanla münasibətlərin normallaşması istiqamətində atılan addımlar qısa müddət ərzində mühüm dəyişikliklərə səbəb olub. 2023-cü ilin sentyabrında baş vermiş son toqquşmadan sonra iki ildən az müddətdə sülhə nail olunması müasir beynəlxalq münasibətlər tarixində nadir hadisələrdən biri hesab olunur. Bu proses güclü siyasi iradə və uzunmüddətli düşmənçiliyin davam edə bilməyəcəyinin dərk edilməsi nəticəsində mümkün olub. Artıq sülh şəraitində yaşanılan dövrün ilk nəticələri özünü göstərir və regionda əməkdaşlıq üçün yeni üfüqlər açır. Həm sülhün bərqərar olması yalnız siyasi sabitlik yaratmır, həm də iqtisadi əməkdaşlıq, ticarət və nəqliyyat layihələrinin inkişafı üçün geniş imkanlar yaradır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, sülh şəraitində

yaşayırıq: “Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur”.

Forumda səsləndirilən mühüm məsələlərdən biri də enerji təhlükəsizliyi idi. Müasir dövrdə enerji resurslarına olan tələbatın artması və enerji bazarlarında baş verən dəyişikliklər bu sahənin strateji əhəmiyyətini daha da artırır. Dövlət başçımız qeyd etdi ki, bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Enerji bazarlarında baş verən qeyri-sabitlik və qiymət dalğalanmaları həm istehlakçılar, həm də istehsalçılar üçün ciddi risklər yaradır. Bu baxımdan balanslaşdırılmış və proqnozlaşdırıla bilən enerji bazarının formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə OPEC və OPEC+ çərçivəsində həyata keçirilən əməkdaşlıq da xüsusi rol oynayır. Məsuliyyətli tərəfdaş kimi bazarda sabitliyin təmin olunmasına yönəlmiş təşəbbüslər beynəlxalq enerji bazarının tarazlığının qorunmasına töhfə verir.

Enerji resurslarının ixrac coğrafiyasının genişlənməsi enerji təhlükəsizliyinin möhkəmləndirilməsində əsas rol oynayır. Bu gün təbii qaz ixrac edilən ölkələrin sayının 16-ya çatması enerji əməkdaşlığının miqyasını göstərir. Bu göstərici enerji sahəsində qurulmuş etibarlı tərəfdaşlığın nəticəsi kimi dəyərləndirilir. Həmçinin enerji layihələrinin davamlı inkişafı regionun beynəlxalq enerji bazarında strateji mövqeyinin daha da güclənməsinə imkan yaradır. Prezident İlham Əliyev çıxışında onu da dilə gətirdi ki, boru kəmərləri vasitəsi ilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir: “İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara

etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək”.

Forumda qlobal iqtisadi əməkdaşlığın mühüm elementlərindən biri olan nəqliyyat və logistika məsələləri də geniş şəkildə müzakirə olunub. Müasir dövrdə baş verən münaqişələr ənənəvi nəqliyyat marşrutlarının fəaliyyətinə mənfi təsir göstərir və bu, qlobal tədarük zəncirlərində ciddi problemlər yaradır. Belə şəraitdə yeni və etibarlı nəqliyyat marşrutlarının yaradılması böyük əhəmiyyət kəsb edir. Son illərdə nəqliyyat və logistika infrastrukturuna böyük investisiyalar yatırılıb və bu layihələr regionun qlobal nəqliyyat sistemində rolunu daha da artırıb. Bu gün region Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biridir. Bu dəhlizlər Avropa ilə Asiya arasında ticarət əlaqələrinin inkişafında mühüm rol oynayır və qlobal ticarət marşrutlarının diversifikasiyasına töhfə verir.

XIII Qlobal Bakı Forumu bir daha göstərdi ki, müasir dünyada qarşılıqlı dialoq və əməkdaşlıq beynəlxalq sabitliyin qorunması üçün vacib amillərdən biridir. Dünyada yeni gərginlik nöqtələrinin yaranması və mövcud münaqişələrin davam etməsi beynəlxalq hüququn və qlobal idarəetmə mexanizmlərinin daha effektiv işləməsinin vacibliyini ortaya qoyur. Belə beynəlxalq platformalar müxtəlif ölkələrin nümayəndələrini bir araya gətirərək qlobal problemlərin müzakirəsi və ortaq həll yollarının tapılması üçün mühüm imkan yaradır. Bu forum da qlobal dialoqun inkişafına və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət edən mühüm platformalardan biri kimi öz əhəmiyyətini bir daha təsdiqləyib.

Enerji təhlükəsizliyi, iqtisadi tərəfdaşlıq və regional sabitlik kimi məsələlərin qlobal gündəlikdə xüsusi yer tutduğu bir dövrdə Avropa İttifaqı ilə münasibətlərin genişlənməsi strateji məna daşıyır. Bu baxımdan martın 11-də Bakıda keçirilən görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta arasında aparılan müzakirələr zamanı tərəflər arasında siyasi dialoq, iqtisadi əlaqələr, enerji təhlükəsizliyi və regional sabitlik kimi mühüm istiqamətlər üzrə geniş fikir mübadiləsi aparılıb.

Son illərdə Avropa institutları ilə əlaqələrin intensivləşməsi siyasi dialoqun daha sistemli və davamlı xarakter aldığını göstərir. Müxtəlif səviyyələrdə keçirilən görüşlər, qarşılıqlı səfərlər və aparılan müzakirələr tərəflər arasında beynəlxalq etimadın daha da möhkəmləndiyini nümayiş etdirir. Xüsusilə Avropa Komissiyası nümayəndələrinin son dövrlərdə regiona ardıcıl səfərləri əməkdaşlığın genişlənən gündəliyini aydın şəkildə göstərir. Bu münasibətlər yalnız diplomatik dialoqla məhdudlaşmır. İqtisadi, enerji və nəqliyyat sahələrində həyata keçirilən birgə layihələr tərəfdaşlığın strateji mahiyyətini gücləndirir. Beynəlxalq münasibətlər mühitində qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modeli regional sabitliyin təmin olunmasında mühüm rol oynayır.

Avropa İttifaqı ilə iqtisadi münasibətlər son illərdə sürətlə genişlənir. Ticarət dövriyyəsinin əhəmiyyətli hissəsinin Avropa bazarı ilə bağlı olması tərəflər arasında iqtisadi əməkdaşlığın miqyasının bariz göstəricisidir. Bu isə iqtisadi tərəfdaşlığın dayanıqlı və qarşılıqlı faydalı xarakter daşıdığını göstərir. İnvestisiya sahəsində də əməkdaşlıq genişlənməkdədir. Yeni layihələrin həyata keçirilməsi regionda iqtisadi dinamikanın güclənməsinə və sənaye sahəsində modernləşmə proseslərinin sürətlənməsinə şərait yaradır. Bu proses yalnız iqtisadi göstəricilərin artmasına deyil, eyni zamanda, texnoloji inkişaf və innovativ yanaşmaların tətbiqinə də töhfə verir.

Avropa ilə münasibətlərdə enerji sahəsi xüsusi strateji əhəmiyyət daşıyır. Hazırda Avropa İttifaqına üzv olan 10 dövlət enerji resurslarını

ölkəmizdən əldə edir və ümumilikdə, 16 dövlət qaz təchizatından faydalanır. Bu fakt regionun Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını göstərir. Enerji resurslarının etibarlı və davamlı şəkildə çatdırılması Avropa qitəsinin enerji balansının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Enerji sahəsində əməkdaşlığın mühüm platformalarından biri də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən toplantılardır. Bu platforma enerji siyasətinin koordinasiyası, yeni layihələrin müzakirəsi və tərəfdaşlığın genişləndirilməsi üçün mühüm mexanizm kimi çıxış edir. Dövlətimizin başçısı çıxışında bildirib ki, Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır: “Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub və belə də olacaq. Bu, xüsusən də 2022-ci ildə enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur”.

Enerji əməkdaşlığının mühüm istiqamətlərindən biri də bərpaolunan enerji sahəsidir. Günəş, külək və su elektrik enerjisi üzrə həyata keçirilən layihələr regionun böyük potensiala malik olduğunu göstərir. Qarşıdakı illərdə ixraca yönəlmiş böyük həcmli yaşıl enerji istehsalının təmin edilməsi planlaşdırılır. Coğrafi və iqlim şəraiti bu istiqamətdə geniş imkanlar yaradır. Günəşli günlərin sayının çoxluğu və külək enerjisi potensialının yüksək olması yaşıl enerji layihələrinin inkişafı üçün əlverişli şərait formalaşdırır. Avropa tərəfdaşları ilə həyata keçirilən layihələr bu sahədə infrastrukturun modernləşdirilməsinə və yeni ötürülmə xətlərinin yaradılmasına imkan verir.

Görüşlər zamanı regional təhlükəsizlik və nəqliyyat məsələləri də diqqət mərkəzində olub. Xüsusilə Orta Dəhlizin inkişafı Avropa ilə Asiya arasında yeni iqtisadi və logistika imkanları yaradır. Bu marşrut qlobal ticarət əlaqələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Regionda sülh mühitinin formalaşması isə iqtisadi əməkdaşlığın genişlənməsi üçün mühüm amildir. Ermənistanla sülh prosesinin davam etdirilməsi və regionda sabitliyin təmin olunması gələcək əməkdaşlıq perspektivləri baxımından böyük əhəmiyyət kəsb edir.

Avropa İttifaqı ilə münasibətlər çoxşaxəli və strateji xarakter daşıyır. Enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq, nəqliyyat marşrutları və regional sabitlik kimi məsələlər tərəfdaşlığın əsas istiqamətlərini təşkil edir. Bu əməkdaşlıq modelinin əsas məqsədi qarşılıqlı faydalı tərəfdaşlıq yaratmaq və regionda uzunmüddətli sabitliyi təmin etməkdir. Mövcud layihələrin genişləndirilməsi və yeni təşəbbüslərin həyata keçirilməsi yaxın illərdə tərəfdaşlığın daha da möhkəmlənəcəyini göstərir.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta arasında keçirilən görüşlər Avropa ilə münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir və qarşılıqlı əməkdaşlığın gələcək perspektivlərinin geniş olduğunu nümayiş etdirir.

**Malik Həsənov.** Prezident İlham Əliyevin himayəsi altında və “Nizami Gəncəvi” Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusuna həsr olunan XIII Qlobal Bakı Forumu öz işini başa çatdırdı.

Artıq uzun illərdir, bu Forum qlobal problemlərin təhlili, siyasi dialoqun təşviqi və beynəlxalq tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm strateji platforma statusu qazanıb. Tədbir müasir çağırışların həllinə və

qlobal əməkdaşlığa əhəmiyyətli töhfələr verir. Çox önəmli bir mövzuya həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından nüfuzlu siyasi xadimlər, fəaliyyətdə olan və sabiq prezidentlər, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak etdilər.

Martın 14-dək davam edən Forumda müxtəlif mövzularda panellər təşkil olundu. Tədbir çərçivəsində keçirilən görüşlərdə, çıxışlarda və aparılan müzakirələrdə xüsusi qeyd olundu ki, indiki şəraitdə dünyada münaqişə və müharibələrin geniş vüsət aldığı bir vaxtda bu qlobal konfransın əhəmiyyəti ikiqat artır.

Dövlət başçısı İlham Əliyevin toplantıdakı çıxışında qeyd etdiyi kimi, bir qlobal forumdan digərinə keçərkən fəaliyyət sahəsinin getdikcə genişləndiyini görürük. Təmaslar son dərəcə əhəmiyyətlidir və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə, həqiqətən, təqdirəlayiqdir. Qlobal miqyasda bu forum əsas beynəlxalq platformalarla eyni səviyyədədir: iştirakçıların – prezidentlərin, baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı təcrübə mübadiləsi baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir və təcrübələrini paylaşırlar, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün müxtəlif ideyalar irəli sürürlər.

Azərbaycanın belə forumlara ev sahibliyi etməsi və iştirakçıların sayında ildən-ilə nəzərəçarpan artım ölkəmizə olan etimadın, dövlətimizin başçısı İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir: “Beynəlxalq tədbir sülh, təhlükəsizlik və dayanıqlı inkişaf mövzularında qlobal dialoqa və əməkdaşlığa töhfə verməyi qarşıya əsas hədəf kimi

qoyur. Prezidentimizin uğurlu siyasəti nəticəsində Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır, nüfuzu get-gedə artır.

2013-cü ildən etibarən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr, eləcə də bir sıra digər qlobal problemlər geniş müzakirə edilib, onların həlli yollarının tapılması istiqamətində təhlillər aparılıb.

Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasətidir və ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun da tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik kökənli qrupların sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Ölkəmiz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışır. Ona görə də Azərbaycan çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının Forumu, Bakı Humanitar Forumu kimi bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldir. Ölkəmizin nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Azərbaycan əməkdaşlıq məkanı, təhlükəsiz, sabit ölkə kimi qazandığı imicə daim yeni əlavələr edir. Dövlət başçımız İlham Əliyev çıxışında belə bir çağırışı xüsusi vurğuladı ki, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas

amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik. Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələdir. Çünki işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi və onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik.

Cənab İlham Əliyevin çıxışında xüsusi yer tutan bu məqamlara istinad edərək söyləyə bilərik ki, hazırda dünyada baş verənlər, yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturunu ciddi təhdid edir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə, nüfuzlu təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur: "Azərbaycanın 30 illik işğal dövrünün reallıqları bir daha bu məqamların aydın ifadəsidir. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni silahlı birləşmələrinin ərazilərimizi qeyd-şərtsiz tərk etmələrinin vacibliyi öz əksini tapmışdır, bu sənədlərin kağız üzərində qalması münaqişənin nizamlanması prosesinin 30 il uzanmasına səbəb oldu. Azərbaycan özü ədaləti bərpa, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etdi".

Prezident İlham Əliyev çıxışında Azərbaycanın sülh təcrübəsindən, onun ayrı-ayrı mərhələlərindən geniş bəhs edərək bildirdi: "Bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü

təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur. Biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız, siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk".

Forumda diqqət göstərilən məsələlər sırasında Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatına töhfələrindən də bəhs edildi. Bildirildi ki, ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri əməkdaşlığın coğrafiyasını genişləndirir, yeni körpülərin qurulmasını şərtləndirir. Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin – neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırır.

Dövlət başçısı onu da vurğuladı ki, bir il əvvəl keçirilən Forumda Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının 12 olduğu qeyd edilmişdir. Bir il ərzində bu göstərici 16-ya yüksəldi. Boru kəmərləri vasitəsi ilə təbii qaz ixracatçısı kimi, coğrafi əhatəyə görə ölkəmiz dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazarda etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək. Cənab İlham Əliyev çağırış etdi ki, Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika

infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq–Qərb və Şimal–Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq. Əslində, həm Orta Dəhlizdə, həm də Şimal–Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Bu gün Azərbaycan regionda mühüm söz sahibi və sabitləşdirici aktor kimi çıxış edərək beynəlxalq əməkdaşlığın güclənməsinə davamlı töhfələr verir.

**Müşfiq Cəfərov**. Mən də sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı və milli Novruz Bayramı münasibəti ilə ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Hökumətin hesabatını yüksək qiymətləndirirəm və lehinə səs verəcəyəm. Hesabat müxtəlif sahələri əhatə edərək əhalinin rifahının yaxşılaşması məqsədi ilə həyata keçirdiyi fəaliyyətləri və ona xərclənən vəsaitləri özündə əks etdirir. Mərkəzi və yerli icra hakimiyyətlərinin fəaliyyətini daha da genişləndirmək və hesabatlılıq baxımından faydalı olmasını təmin etmək məqsədi ilə bir neçə təkliflə çıxış etmək istərdim.

Hazırda Qarabağda irimiqyaslı və əsaslı işlər aparılır, infrastruktur layihələr həyata keçirilir, kəndlər, qəsəbələr və şəhərlər salınır. Bununla bərabər artıq böyük qayıdış proqramına da start verilib və 2026-cı ilin sonunadək 40 min ailənin və ya 150 min soydaşımızın bu bölgəyə qayıdışı və məskunlaşması nəzərdə tutulub. Hesab edirəm ki, Böyük Qayıdış proqramının daha uğurlu və dayanıqlı olması üçün biz vətəndaş cəmiyyəti institutlarını, qeyri-hökumət təşkilatlarını bu prosesə mütləq şəkildə cəlb etməliyik. Onlar daha çox icma inkişafı yönümlü layihələr həyata keçirməklə proqramın hər bir sakinini əhatə edərək, onların, xüsusi ilə də gənclərin icmanın inkişafında rolunu artıra bilər və gələcəkdə o ərazilərdə daha çox gənclərin yaşayıb yaratmasına yol açmış olarlar.

Son dövrlər paytaxt Bakıda tıxacların artması sürücülərin və insanların narahatlığına səbəb olur. Şəhər nəqliyyatının daha səmərəli təşkili baxımından, hesab edirəm ki, taksilərin avtobus zolaqlarından istifadəsi məsələsinə baxılması məqsədəuyğun olardı. Bir çox ölkələrin təcrübəsində müəyyən şərtlərlə – məsələn, pik saatlardan kənar vaxtlarda taksilərin bu zolaqlardan istifadə etməsinə icazə verilir ki, bu da həm tıxacların azalmasına, həm də sərnişinlərin daha operativ daşınmasına xidmət edir. Avtobus zolaqlarından istifadə edən taksilərin üzərində isə hansı şirkətə məxsus olmalarını əks etdirən yazının, onun taksi xidməti olduğunu göstərən tablonun olması da sui-istifadə hallarının qarşısını almış olar.

Digər bir məsələ – magistral avtomobil yolları ilə bağlı olan məsələdir. Bu, həm deputat seçildiyimiz şəhər və rayonların yolları, həm də hər birimizin tez-tez istifadə etdiyi magistral yollardır. Biz hər birimiz – istər hökümət üzvləri, istərsə də millət vəkilləri magistral yollardan qəbullara gedərkən istifadə edirik. Sonuncu dəfə qəbuldan qayıdarkən yağışlı havada faciəvi bir qəzanın şahidi oldum. Bəzən yağışlı havalarda gecə saatlarında yolları görmək mümkün olmur və yolda ciddi maneələr yaranır. Düşünürəm ki, bu maneələrin qarşısını biz qısa zamanda almalıyıq, əks təqdirdə belə qəzaların sayı çox ola bilər.

İlk növbədə magistral yollara mütləq şəkildə tərkibində fosfor olan rənglər vurulmalıdır ki, ən azından onun işıltısı ilə qaranlıqda, yağışlı havalarda hərəkət etmək mümkün olsun. Nəzərə alsaq ki, magistral yolları tam şəkildə işıqlandırmaq həm zaman, həm də maliyyə tələb edən bir məsələdir. Bakı–Ələt yolunun davamı olaraq magistral yollarımız enerji qənaətli işıqlandırma sistemləri ilə mərhələli şəkildə təmin edilərsə, məqsədəuyğun olar.

Digər bir qəza səbəbi isə yolu iki hissəyə bölən beton bölgülər layihəsi icra olunan zaman dönüş üçün yerlərin qoyulmamasıdır. Sonradan bu dönüşləri “Azəravtoyol” ASC bir neçə yerdə açmalı oldu. Bardurlardan istifadə edərək yola müdaxilə edildi. Amma yenə də avtomobil gecə saatlarında və yağmurlu havalarda bu dönəcəklərə yaxınlaşdıqda o maneəni görə bilmir.

Hesab edirəm ki, çox təcili olaraq tərkibində fosfor olan, narıncı rəngli rezin sütunlardan bu dönəcəklərdə istifadə etməliyik. Onlardan şəhər daxilində də istifadə edilir. Çünki avtomobil betona çırpılmaqdansa, o rezinlərə dəyərsə, ağır qəzanın qismən qarşısı alınar.

Son olaraq 2025-ci ildə Gəncə şəhərinin böyük bir idman tədbirinə ev sahibliyi etməsini nəzərə alaraq şəhərimizin abadlaşmasında və idman tədbirinin yüksək səviyyədə keçirilməsində başda cənab Prezident olmaqla zəhməti olan hər bir kəsə öz təşəkkürümü bildirirəm.

**Vüqar Rəhimzadə.** Bu gün Azərbaycanın hər bir bölgəsi kimi, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da özünün inkişaf dövrünü yaşayır. Son 22 ildən artıq dövr ərzində Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla davam etdirilməsi ölkəmizin inkişafında özünün aydın ifadəsini tapır. Hazırda dövlət başçımızın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində digər bölgələrimiz kimi Naxçıvanın sosial-iqtisadi inkişafında da yeni mərhələ başlayıb. Prezidentimiz digər bölgələrimiz kimi Naxçıvanın inkişafını da daim diqqət mərkəzində saxlayır. “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi, Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında və Naxçıvan

şəhərində yerləşən "Möminə Xatun Türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında" Prezident sərəncamları dövlət başçısının Azərbaycanın bu qədim bölgəsinin inkişafına daimi diqqətinin göstəricisidir.

Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə Xatun Türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə, bütövlükdə, İslam aləminin şah əsərləri sırasında xüsusi yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Bu abidə xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınıb. Möminə Xatun Türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədi ilə dünya əhəmiyyətli tarixi memarlıq nümunəsinin bərpa və konservasiya işlərinin davam etdirilməsinə vəsait ayrılması Azərbaycan mədəniyyətinin qorunmasına böyük töhfə, tarixi irsə göstərilən diqqət və qayğıdır.

Bundan əlavə, Prezident İlham Əliyevin imzaladığı digər bir Sərəncamla "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi bölgədə su ehtiyatlarının qorunması, mövcud resurslardan səmərəli və dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, həmçinin su təminatı infrastrukturunun müasirləşdirilməsi məqsədi daşıyır. Hesab edirəm ki, sözügedən Tədbirlər

Planı muxtar respublikada əhalinin içməli su təminatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşmasına mühüm töhfə verəcək.

Dövlət başçısının imzaladığı bu sərəncamlar ölkəmizin ayrılmaz hissəsi olan və uzun illərdir blokada şəraitində yaşayan Naxçıvanda əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi və regionun mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin göstərdiyi davamlı diqqət və dəstək bu gün Naxçıvanın sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verir. Muxtar Respublikanın əhalisi, o cümlədən mənim seçildiyim 6 saylı Ordubad-Culfa seçki dairəsi ərazisində yaşayan sakinlər göstərilən diqqət və qayğını yüksək qiymətləndirir və Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edirlər. Mən də seçicilərimə qoşularaq möhtərəm cənab Prezidentimizin göstərdiyi ali diqqətə görə ona dərin təşəkkürümü bildirirəm.

***

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı və süni intellekt texnologiyalarının müxtəlif sahələrdə geniş tətbiqi informasiya mühitində böyük dəyişikliklərə yol açıb. Bu proses yalnız texnologiya sektorunu deyil, həm də iqtisadiyyat, təhsil, səhiyyə və xidmət sahələrində innovativ imkanların yaranmasına şərait yaratmışdır. Rəqəmsal texnologiyaların və süni intellektin inkişafı informasiya mühitini transformasiya edərək həm xidmətlərin səmərəliliyini artırır, həm də yeni innovativ imkanlar üçün zəmin yaradır. Bu tendensiya gələcəkdə iqtisadi və sosial inkişafın əsas hərəkətverici qüvvələrindən biri olacaq.

Bununla belə, rəqəmsal texnologiyalar və süni intellektin inkişafı yeni imkanlarla yanaşı, müəyyən riskləri də gündəmə gətirmişdir. Qeyd olunan texnologiyalardan zərərli məqsədlərlə istifadə hallarının artması müşahidə

olunur. Xüsusi ilə süni intellekt texnologiyalarının köməyi ilə şəxslərin görüntüsü və ya səsindən istifadə edilərək reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması halları geniş yayılmışdır. Bu cür hallar şəxsi həyatın toxunulmazlığına müdaxilə etməklə yanaşı, şəxsin şərəf və ləyaqətinin müdafiəsinə xələl gətirə, habelə ictimai rəyin manipulyasiyasına və cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb ola bilər ki, bu da həmin sahədə müvafiq hüquqi mexanizmlərin formalaşdırılmasını zəruri edir. Bu tendensiya süni intellekt və rəqəmsal texnologiyaların inkişafının həm sosial, həm də hüquqi aspektlərdə ciddi tənzimləmələrə və nəzarət mexanizmlərinə ehtiyac yaratdığını göstərir.

Bu baxımdan Cinayət, Cinayət-Prosessual məcəllələrində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Media haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi çox böyük əhəmiyyət kəsb edir. Təqdim olunan sənəd süni intellekt texnologiyalarından istifadə edilməklə ərsəyə gətirilmiş reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi ilə hazırlanıb. Qanun layihəsi süni intellekt texnologiyalarından sui-istifadə hallarının qarşısının alınmasına, şəxslərin hüquq və azadlıqlarının, şərəf və ləyaqətinin qorunmasına, habelə bu sahədə müvafiq hüquqi mexanizmlərin tətbiqini zəruri edir.

Layihəyə əsasən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni maddələrin əlavə edilməsi təklif olunur. Həmin maddələrə əsasən şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsi ilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması, habelə pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması və

yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, layihə ilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 37.3-cü maddəsinə müvafiq dəyişiklik edilərək Cinayət Məcəlləsinin 148-2.1-ci maddəsi üzrə cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir.

Eyni zamanda, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarına edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər və məhdudiyyətlər müəyyən olunur.

Hesab edirəm ki, hüquqi tənzimləmələrin tətbiqi belə texnologiyalarının cəmiyyətdə məsuliyyətli istifadəsini təmin etməklə həm fərdlərin hüquqlarını qoruyacaq, həm şəxsi həyatın toxunulmazlığına müdaxilə hallarının qarşısını alacaq, həm də informasiya mühitinin təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcək. Bu, müasir rəqəmsal cəmiyyətdə etik və qanuni prinsiplərin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Təklif olunan Qanun layihəsi çox aktualdır və mühüm əhəmiyyət kəsb edir. Qanuna dəyişiklikləri dəstəkləyirəm və ona səs verəcəyəm. Deputat həmkarlarımı da bu dəyişikliyə səs verməyə çağırıram.